

Jurnal 10 May 1998-ci ildən çıxır

# ULU XAQAN

"AD GÜNÜ" JURNALININ XÜSUSİ BURAXILIŞI
Beynəlxalq ictimai-siyasi jurnal

Sentyabr 2017-ci il
№ 9 (277)



*"Qarşımda çoxlu vəzifələr var, çoxlu işlər görmək əzmindəyəm. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəyəm. Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam. Əgər xalq mənim fəaliyyətimi dəstəkləyirsə, inanırsa, bu, ən böyük mükafatdır"*

**İlham ƏLİYEV,**

*Azərbaycan Respublikasının Prezidenti*

# Mehriban Əliyeva: Azərbaycan qadını işgüzar və intellektlidir



**M.A.Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin**

## Sərəncamı

**Azərbaycan Respublikası Konstitusiyasının $103^{1}$ -ci maddəsinin I hissəsini rəhbər tutaraq qərara alıram:**

**Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilsin.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 21 fevral 2017-ci il.**

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva: "Cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam"

Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilib.

AZƏRTAC xəbər verir ki, fevralın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.

İclasda Prezident İlham Əliyev Mehriban xanım Əliyevanı təqdim edərək deyib:

-Bu gün mənim Sərəncamımla Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilib. Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır. Bu gün Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 700 minə yaxınlaşır.

Mehriban Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, deputat kimi çox böyük işlər görüb, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox böyük addımlar atıb. Seçicilərlə daim təmasdadır və onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həlli ilə bağlıdır. Eyni zamanda, Mehribanın deputat kimi çox geniş beynəlxalq fəaliyyəti də var. Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb.

2004-cü ildən bu günə qədər Mehriban Əliyeva Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Fondun təşəbbüsü ilə bir çox önəmli layihələrə, proqramlara start verilmişdir. Onların arasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı xüsusi qeyd edilməlidir. Məhz bu proqramın başlanması nəticəsində son 13 il ərzində ölkəmizdə üç mindən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilmişdir.

Digər layihələr ölkəmizin hərtərəfli inkişafına xidmət göstərmişdir. Heydər Əliyev Fondunun xətti və dəstəyi ilə minlərlə insan tibbi müalicə ilə təmin edilmişdir. Bir çox hallarda bu məsələlər ictimaiyyət üçün açıqlanmır. Fondun fəaliyyəti məhz o məqsədi güdür ki, ehtiyacı olan insanlara yardım etsin və ən az müdafiə olunan vətəndaşlara imkan daxilində öz dəstəyini göstərsin.

Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur. Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu, sadəcə olaraq sənət növü deyil, bu, bizim mədəni sərvətimizdir. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan belə təşəbbüslər çox böyük ictimai məna daşıyır. Eyni zamanda, dünya miqyasında muğamın məhz Azərbaycan sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun çox böyük rolu olmuşdur.

Azərbaycanı dünyada tanıtmaq üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirilmişdir. Çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa, öyrənməyə, görməyə başlamışdır ki, Azərbaycan müasir, dinamik inkişaf edən ölkədir. Eyni zamanda, Azərbaycan xalqı öz tarixi köklərinə çox bağlı olan xalqdır.

Mehriban Əliyeva Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvüdür və onun bu fəaliyyəti də təqdirəlayiqdir. Ölkəmizdə keçirilmiş bir neçə qlobal tədbirin təşkilində

# Mehriban Əliyeva: Azərbaycan qadını işgüzar və intellektlidir



Mehriban Əliyeva xüsusi rol oynamışdır. 2012-ci ildə “Eurovision” mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi məhz onun təşkilatçılığı ilə mümkün olmuşdur. 2015-ci ildə birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi də Təşkilat Komitəsinin və onun rəhbəri Mehriban Əliyevanın fəaliyyəti nəticəsində mümkün olmuşdur. İki il yarım ərzində bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirmək, əlbəttə ki, böyük nailiyyət idi. Birinci Avropa Oyunları tarixdə ən yüksək səviyyədə keçirilmiş mötəbər idman tədbiri kimi qalacaqdır.

Təsadüfi deyil ki, bu il keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarının təşkili də Mehriban Əliyevaya həvalə edilib. Bu Oyunların Təşkilat Komitəsinin sədri də odur və hazırlıq işləri yüksək səviyyədə aparılır. Əminəm ki, biz İslam Həmrəyliyi Oyunlarını da yüksək səviyyədə keçirəcəyik.

Mehribanın beynəlxalq aləmdə böyük nüfuzu var. Məhz öz fəaliyyəti nəticəsində bir çox ölkələrin ən yüksək dövlət mükafatları və ordenləri ilə təltif edilib-dir. Eyni zamanda, on ildən artıqdır ki, Mehriban Əliyeva UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiridir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, hər iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bu, eyni zamanda, onun dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi töhfə ilə bağlıdır. Bu töhfə ölkəmizin siyasətinin təzahürüdür. Çünki bu gün Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən ölkələrdən biri kimi tanınır. Əlbəttə ki, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi Mehriban bu işə də çox önəmli töhfə verir. 2015-ci ildə birinci Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyeva Azərbaycan dövlətinin ən ali mükafatı olan “Heydər Əliyev” ordeni ilə təltif edilmişdir.

Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda, qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır.

Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir. Bu təyinat münasibətilə mən onu təbrik edirəm və ona yeni uğurlar arzulayıram.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva çıxış edərək dedi:

-Hörmətli cənab Prezident.

Mənə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam.

Mənim fəaliyyətim haqqında dediyiniz sözlərə, verdiyiniz qiymətlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Mənim üçün belə bir qiymətə layiq olmaq böyük şərəfdir. Sadaladığınız hər bir uğurun, hər bir nailiyyətin arxasında Sizin köməyiniz, Sizin dəstəyiniz durur.

Ötən illər ərzində Sizin dövlətçilik ideyalarınız, vətənpərvərliyiniz, Azərbaycan dövlətinin maraqlarını sədaqətlə, iradə ilə, cəsarətlə qorumağınız, insanlarla, Azərbaycan xalqı ilə birliyiniz mənim və mənimlə çalışan bütün insanlar üçün bir nümunə idi. Bizim fəaliyyətimizi istiqamətləndirən bir nümunə idi. Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz öz kiçik də olsa töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır.

Rəhbərlik etdiyim Heydər Əliyev Fondu artıq 13 ildir ki, öz fəaliyyətini humanizm prinsipləri əsasında qurub. Biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Biz Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik. Biz infrastruktur layihələri icra edirik. Eyni zamanda, biz 13 il ərzində ayrı-ayrı insanların problemlərinə heç zaman biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək və eşitmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir. Hesab edirəm ki, bu, dövlət qurumlarında çalışan bütün insanların əsas borcu və vəzifəsidir. Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar.

Hörmətli cənab Prezident.

Hörmətli Təhlükəsizlik Şurasının üzvləri.

Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam.

Göstərdiyiniz etimada görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

X X X

İclasda Təhlükəsizlik Şurasının üzvləri Azərbaycan Respublikası Prezidentinin qərarını dəstəklədiklərini bildirdilər və Mehriban Əliyevaya fəaliyyətində uğurlar arzuladılar.

"Ad günü" jurnalı, "Carçı" qəzeti redaksiyaları və Kərimli ailəsi adından Azərbaycan Respublikasının Birinci Vitse Prezi-dent Xanım Mehriban Əliyevanı səmimi qəlbdən təbrik edir, Ona - Ulu Öndər Heydər Əliyev məktəbinin məzununa bu məsuliyyətli vəzifədə uğurlar arzulayırıq.





# Prezidentin çıxışı nazirliyi hərəkətə gətirdi: “Aprel döyüşləri dərsliklərə salınır”

**Xəbər verdiyimiz kimi, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Füzuli rayonu ərazisində ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olub.**

Dövlət başçısı hərbçilərlə görüş zamanı toxunduğu məsələlərdən biridə aprel döyüşlərinin dərsliklərə salınması ilə bağlı idi. Prezident İlham Əliyev qeyd edib ki, yüksəklikləri, təpələri işğalçılardan azad etdiyimiz, böyük qəhrəmanlıq göstərdiyimiz aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Çünki Azərbaycan ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərib.

**Məsələ ilə bağlı Milli Məclisin Elm və təhsil Komitəsinin sədri İsa Həbibbəyli bildirib ki, aprel döyüşləri yeni dərs ili üçün çap olunacaq həm yeni dərsliklərə, həm də növbəti dəfə çap olunacaq köhnə dərsliklərə salınacaq:**

"Aprel döyüşləri Azərbaycanın öz ərazi bütövlüyünü qorumaq uğrundakı apardığı mübarizədə ən parlaq qələbələrdən biridir. Bu Azərbaycanın qalib bir ordu olduğunu və öz haqlarını istənilən yolla müdafiə etmək qüdrətini bütün dünyaya bəyan elədi. Bu hər bir azərbaycanlının qürur duyduğu hadisədir.

Hazırda Dağlıq Qarabağ mövzusu orta və ali məktəblərdə tədris olunur. Qeyd edim ki, aprel döyüşləri orta və ali məktəb dərsliklərinə daxil olmamışdan əvvəl də müəllimlər humanitar və ictimai fənlərdə, xüsusilə tarix, ədəbiyyat dərslərində bu hadisədən geniş bəhs edirlər.

Amma heç şübhəsiz ki, bu məsələ yeni dərs ilinə qədər yenidən hazırlanan yeni dərsliklərdə, böyük tirajla çap olunan digər dərsliklərin hamısında öz layiqli elmi qiymətini alacaq. Bu hadisə layiqli şəkildə şagirdlərə və tələbələr çatdırılacaq. Çünki bu çox önəmli məsələdir. Bilirəm ki, Təhsil Nazirliyinin Dərslik Şöbəsi də bununla bağlı uyğun iş aparır.

Amma yeni dərsliklərə salınmamışdan əvvəl hazırda tədrisdə bu hadisələrdən geniş bəhs olunur. Mütləq yeni dərs ilinə qədər həm yeni yazılan dərsliklərə, həm də köhnə dərsliklərdə aprel döyüşləri ilə bağlı məsələlər daxil olunacaq. Təhsil Nazirliyində də hazırda bu istiqamətdə işlər görülür”.

Komitə sədri əlavə edib ki, Milli Elmlər Akademiyasının elmi jurnallarında, hazırlanan humanitar yönlü olan institutlarda aparılan mahiyyətli tədqiqatlarda da aprel döyüşlərinə layiqli elmi qiymət verilir. Bu proses bundan sonra da davam edəcək.

**Təhsil eksperti, "XXI əsr” Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev vurğulayıb ki, şagirdlərə erkən yaşlardan qəhrəmanlıq hislərinin gücləndirilməsi üçün belə döyüşlərin bir paraqrafda belə dərsliklərə salınması məqbuldur:**

"Ümumiyyətlə, Dağlıq Qarabağla bağlı istənilən fədakarlıq, eyni zamanda bizim xeyrimizə olan istənilən təşəbbüs geniş işıqlandırılmaldır. Həmçinin bu hadisələr gələcək nəsillər üçün tarixə çevrilməlidir.

Bu mənada uşaqlara və şagirdlərə erkən yaşlardan qəhrəmanlıq hislərinin gücləndirilməsi üçün belə döyüşlərin bir paraqrafda belə dərsliklərə salınması məqbuldur. Hesab edirəm ki, bu təşəbbüs həyata keçirilməlidir. Hazırda tarix dərsliklərində antik dövr, orta əsrlər, müasir dövrün tarixini əhatə edən hadisələrin yazılması faktları var. Hesab edirəm ki, daha çox gənclərə və şagirdlərə daha çox müasir indiki döyüş salnamələri daha maraqlı ola bilər.

**Bu onlarda vətənpərvərlik hislərinin daha da güclənməsinə səbəb olacaq. Həmçinin bir xüsusi buraxılış kimi tarix dərsliklərinə əlavə kimi Qarabağ döyüşlərində həlak olan qəhrəmanlarımız, qüdrətli oğullarımız haqda ayrıca bir kitabda dərc etmək olar. Bunu onların hər zaman xatırlanması üçün etmək lazımdır. Çünki müharibə bitməyib, ədalətli sülh əldə olunmayıb. Ona görə də bu cür məsələləri işıqlandırmaq lazımdır ki, hadisələr gənc nəslin yaddaşından heç vaxt silinməsin”.**

# Azərbaycan hakimiyyətinin iradəsi azad sözü, media mühitini formalaşdırmaq, jurnalistləri getdikcə peşəkar etməkdir

## Əli Həsənov Heydər Əliyevlə tanışlığının tarixindən danışdı



**Əli HƏSƏNOV, Azərbaycan Respublikası Prezidentnin İctimai-Siyasi Məsələlər üzrə köməkçisi**

**- Əli müəllim, Sizin Heydər Əliyevlə bağlı xatirələrinizi eşitmək istərdik…**

- Ulu öndərlə ilk tanışlığım 1990-cı ilin yanvar ayında olub. Bilirsiniz ki, həmin zaman sovet ordusu Azərbaycan xalqının qanını axıtmışdı, Bakıda qırğınlar törədilmişdi və faktiki olaraq, insanlarımız yas içərisində idi. Həmin vaxt Ümummilli lider Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, bu hadisəyə qiymət və Azərbaycan xalqına başsağlığı verdi. O dövrki SSRİ hakimiyyətinin rəhbərliyində olan Qorbaçov, Bokatin, Yazov və digərlərini ittiham edərək, onların nə vaxtsa, Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlarını bəyan etdi.

Həmin vaxtlarda mən Moskvada aspiranturada təhsil alırdım və o zaman Ümummilli liderimizlə yaxınlaşmamız baş verdi. Təxminən 1990-cı ilin may ayının sonu iyunun əvvəllərində Azərbaycana gələn Heydər Əliyevi müşayiət edən 3 adamdan biri mən oldum. Lakin Mütəllibov hakimiyyəti Ulu öndərimizin qarşısına öyrədilmiş xüsusi qrup çıxarmışdı və onlar da əsassız olaraq, deyirdilər ki, Heydər Əliyev Azərbaycana qayıtmasın. Lakin tarixi təcrübə göstərdi ki, həmin insanların atdıqları addımlar çox yalnış idi. Çünki, həmin vaxtda Azərbaycan xalqının Ümummilli lider Heydər Əliyev kimi dahi siyasətçiyə ehtiyacı vardı. Amma Ona Bakıda yaşamağa imkan vermədilər, bu səbəbdən də, Heydər Əliyev Naxçıvana getməli oldu.

Mən Naxçıvanda da Ümummilli liderin yanında idim. O zaman Ulu öndərin Naxçıvan fəaliyyətini işıqlandırmaq üçün «Azadlıq» radiosu, Amerikanın səsi, Alman dalğası və digər beynəlxalq KİV-lərə müraciətlər edirdik. Beləliklə də, Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü başlandı.

Həmin vaxtda Onun deputatlığa namizədliyi Naxçıvan əhalisi tərəfindən irəli sürüldü. Heydər Əliyev deputat seçiləndən sonra isə mən təhsilimi davam etdirmək üçün yenidən Moskvaya qayıtdım.

Ulu öndərlə növbəti təmasımız 1992-ci ildə – mən təhsilimi başa vurub Naxçıvana qayıtdıqdan sonra oldu. O vaxt mən Naxçıvan Dövlət Universitetində işləyirdim və Azərbaycanın gələcəyilə tarixi qərarın verilməsi üçün ziyalıların Ulu öndərlə görüşlərini, müraciətini yaxından izləyirdim. Eyni zamanda, Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsində, onun Naxçıvanda şəhər və rayon təşkilatlarının yaradılması və təşkilatlanması prosesində də iştirak etdirdim. 1993-cü ildən Yeni Azərbaycan Partiyasının ideoloji şöbəsinin müdiri işləməyə başladım, 1994-cü ilin sonu 1995-ci ilin əvvəllərindən isə Prezident Aparatının İctimai-siyasi məsələlər şöbəsinin müdiri kimi fəaliyyətimi davam etdirdim.

Əlbəttə ki, Onunla təmasda olduğum müddətdə bir daha əmin oldum ki, Heydər Əliyev unikal bir şəxsiyyət idi. Azərbaycan dövlətini və xalqını sevməyin əsil nümunəsini ortaya qoymuş ən böyük Azərbaycanlı idi. Onun ölkəyə rəhbərlik etməsi faktı isə dövlət idarəçiliyinin fenomenal nümunəsini ortaya qoydu. Heydər Əliyev elə bir dahi siyasətçi idi ki, Onun düşüncələri ölkə sərhədlərini aşaraq, qlobal səviyyəli idarəçiliyin qurulması qüdrətində idi. Ümummilli lider xarizmatik bir siyasətçi idi və Onun siyasi rəhbərlik nümunəsi nəinki, həmin dövrün insanları, hətta, gələcək nəsillər üçün də örnəyə çevrildi. Bu mənada demək istərdim ki, Ümummilli liderin qurduğu dövlət və yaratdığı komanda hələ çox illər Onun ideyaları ilə yaşayacaq. Onun formalaşdırdığı milli dövlət, siyasət perspektivdə kimlərin hakimiyyətə gəlməsindən asılı olmayaraq, Azərbaycan üçün yeganə inkişaf yolu olacaq. Əminəm ki, gələcək nəsillər və partiyalar da Heydər Əliyevin fəaliyyətini özlərinə nümunə kimi götürəcəklər və fikirlərini, düşüncələrini Ulu öndərin təlimi üzərində əsaslandırmağa çalışıcaqlar.

**- YAP-ın III qurultayında İlham Əliyevin partiyanın Sədri seçilməsi, eyni zamanda, ölkə rəhbərliyinə gəlməsi Azərbaycan üçün hansı dəyişiklikləri şərtləndirdi?**

- Faktiki olaraq, Prezident İlham Əliyevin həm ölkə rəhbərliyinə gəlməsi, həm də YAP-ın Sədri seçilməsi Heydər Əliyev siyasi kursunun dönmədən davamının qarantı idi. Təbii ki, o zaman Heydər Əliyevin opponentləri var idi. İstənilən zamanda, istənilən şəxsin opponenti olub. Amma siyasi varis kimi Prezident İlham Əliyevin həm partiya, həm də hakimiyyət başına keçməsi Heydər Əliyevin əsasını qoyduğu siyasi kursun dönmədən, ardıcıl davam etdirilməsi demək idi. Sözün həqiqi mənasında, Heydər Əliyev siyasi kursunun Azərbaycanda nativi yox idi və yaxın 10 il ərzində bir daha gördük ki, ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcı oldu. Prezident İlham Əliyev hakimiyyətə gəldikdən sonra Heydər Əliyevin Azərbaycanın keçid dövrü üçün müəyyənləşdirdiyi siyasətə edilir dövlətin və xalqın ehtiyaclarına uyğun olaraq, müəyyən korrektələr də etdi. Bilirsiniz ki, Heydər Əliyevin əsasını qoyduğu yeni neft strategiyası bütün gücü ilə bu gün işləyir, Azərbaycanın imkanları getdikcə artır və daxili, xarici çərçivəyə sığmır, ölkəmiz bölgənin tək milli dövləti yox, regional statuslu gücə çevrilir. Həmçinin, Azərbaycanın iqtisadi-sosial, siyasi və digər istiqamətli siyasəti artıq ölkə miqyasını aşmaqla qlobal xarakter daşımağa başlayır.

Heydər Əliyev siyasətinə yalnız müəyyən korrektələr edilir, lakin Azərbaycan dövlətçiliyinin təməl prisiplərinin qorunması, xalqının milli adət-ənənələrinin saxlanması və inkişafı, ölkədə vətəndaş cəmiyyəti quruculuğu prinsipləri və vətəndaşların vahid düşüncə ətrafında birləşdirilməsi ideyası nə qədər ölkəmiz var yaşayacaq.

**- İlham Əliyevin YAP-ın Sədri seçilməsi partiya üçün hansı yenilikləri şərtləndirdi?**

- Prezident İlham Əliyevin YAP-a Sədr keçməsindən, ölkə rəhbəri seçilməsindən sonra Azərbaycanın gənclik mühitində ciddi bir canlanma müşahidə olunmağa başladı. Əlbəttə ki, Heydər Əliyev dövlətin xilası, qurulması və inkişafı mərhələsində əvəzedilməz siyasətçi idi. Azərbaycan dövlətçiliyinin yeni dövründə isə, yəni, 2003-cü ildən başlayaraq, Prezident İlham Əliyevin dövlət rəhbəri kimi ölkə gəncliyi mühitinə yeni əhval-ruhiyyə gətirdi. Həqiqətən də, çəkinmədən demək olar ki, 2004-cü ildən başlayaraq, Azərbaycanın inkişafında, YAP-ın fəaliyyətində bütün parametrlər üzrə yeni mərhələ başladı.

**- Söylədiklərinizin fonunda Yeni Azərbaycan Partiyasının Azərbaycanın siyasi sisteminin formalaşdırılması, demokratik abhavanın yaradılması prosesindəki rolunu qiymətlənlirərdiniz?**

- Bu bir faktdır ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın dövlətçiliyinin inkişafının bitkin konsepsiyasını yaratdı, hakimiyyətə gəlmənin sivil ənənələrini formalaşdırdı. Bu mənada YAP 1995-ci ildə çoxpartiyalı sistem əsasında yeni parlament formalaşdırdı, Konstitusiyanı qəbul etdi. Bu Konstitusiyanın isə təməl prinsipləri Azərbaycan demokratik inkişafını şərtləndirir, insanların hüquq və azadlıqlarının bütün spektrlərini təmin edir, ölkənin bazar iqtisadiyyatı yolu ilə dünyanın qabaqcıl dövlətlərilə inteqrasiya xəttini təlqin edir, dövlətimizi bölgənin və dünyanın əsas inkişaf etmiş, sülhvevər ölkələrilə birgəyaşayış normalarına əsaslanan siyasətin həyata keçirilməsini təşkil edir. Əlbəttə ki, YAP bütün bu proseslərin əsasında dayanırdı. Məhz, Ümummilli lider YAP-a söykənərək, dövlətçiliyimizin qorunması və inkişafını həyata keçirirdi. Bu gün isə Prezident İlham Əliyev YAP-a söykənərək, real siyasət həyata keçirməkdədir.

**- YAP-ın İdarə Heyətinin üzvü kimi yubileyini qeyd edən partiyanın 600 minə qədər üzvünə hansı sözləri çatdırmaq istərdiniz…**

- Sözün həqiqi mənasında, Yeni Azərbaycan Partiyası 20 ildə ciddi inkişaf yolu keçib, təkmilləşib, özünün bütün milli strukturunu formalaşdırıb. Bu gün ölkəmizin elə bir yaşayış məkanı yoxdur ki, orada YAP-ın özək təşkilatları olmasın. Bu mənada YAP-ın 20 illik yubileyi münasibətilə partiya üzvlərinə ilk növbədə yüksək fəallıq arzu edirəm. YAP-ın qabaqcıl nümayəndələrinin daha çox dövlət strukturlarında çalışdığından partiya dövlət quruculuğu işilə məşğuldur. Lakin buna baxmayaraq, partiyanın xüsusilə də, gənclər təşkilatları, ideoloji strukturları əsas aparıcı tendensiyaların önündə dururlar. Düşünürəm ki, elə gənclər cəmiyyətimizin aparıcı qüvvəsi kimi proseslərin önündə durmalıdır.

Əlbəttə ki, bu gün 600 minə qədər üzvü olan Yeni Azərbaycan Partiyası ölkənin həyatında mühüm rol oynayır. Hazırda olduğu kimi, gələcəkdə də dövlətin inkişaf etdirilməsi prosesində əhəmiyyətli mövqe tutacaq. Bu mənada bütün partiya üzvlərinə uğurlar arzulayıram.

# Fəttah HEYDƏROV: Heydər Əliyev irsi Azərbaycanın inkişaf strategiyasının istinad mərkəzidir




Müstəqil Azərbaycanın 1993-cü ildən başlanan inkişaf yolu keyfiyyətcə yeni mərhələdə böyük uğurlarla zəngindir. Bu gün Azərbaycan dünya miqyasında iqtisadi inkişaf modeli olan, qısa müddətdə yüksək makroiqtisadi göstəricilər əldə edən müstəqil dövlət kimi tanınır. Bu gün Azərbaycanda həyata keçirilən siyasi və hüquqi islahatlar, modernləşmə kursu keçid dövrünü yaşayan ölkələr üçün model olaraq qəbul edilir.

Bu gün Azərbaycanda xalqla hakimiyyət arasında çox güclü mənəvi birlik, həmrəylik var. Məhz bu birlik sayəsində ölkə iqtidarı daha böyük iqtisadi-mədəni inqilablara müəlliflik edir. Bu gün Heydər Əliyev yolu ilə irəliləyən Azərbaycan xalqı onun ən layiqli davamçısının rəhbərliyi altında gələcəyə çox nikbin baxır.

Ulu öndər Heydər Əliyevin şəxsiyyət kimi böyüklüyü həm də əsasını qoyduğu siyasəti yeni dövrün tələblərinə uyğun davam etdirə biləcək qüdrətli lider və etibarlı davamçı yetişdirməsindədir. Möhtərəm İlham Əliyevin müəllifliyi ilə son 13 ildə Azərbaycanın möhtəşəm inkişaf salnaməsinin yeni parlaq səhifələri yazılır. Düşünürəm ki, cənab İlham Əliyevin ötən illərdə yürütdüyü siyasətin real, əməli fəaliyyətə söykəndiyinə hər bir vətəndaş əmin oldu. Hər kəs inandı ki, prezident səlahiyyətlərini Heydər Əliyev kimi dahi siyasətçidən sonra uğurla davam etdirmək, xalqın sevimli rəhbərinə çevrilmək üçün İlham Əliyevdə lazımi səriştə, bacarıq, qabiliyyət, intellektual səviyyə, idarəçilik keyfiyyətləri var.

İlham Əliyevin rəhbərliyi altında son illərdə qazandığımız minlərlə, on minlərlə uğurlu faktı sadalamağa lüzum yoxdur. Bu siyasətin ən böyük uğuru isə bütövlükdə Azərbaycan insanının təfəkkür və düşüncə baxımından müasirləşməsi, milli və bəşəri dəyərləri uzlaşdıra bilməsidir.

Bu gün Milli Məclisdə təmsilçisi olduğum Qəbələ rayonu sanki qələbənin rəmzinə çevrilib. Prezident İlham Əliyevin təbirincə desək, Qəbələ hətta xarici ölkələrin paytaxt şəhərləri ilə müqayisə olunacaq səviyyədədir. Mübaliğəsiz bu fikirdəyəm ki, Qəbələnin özünəməxsus gözəl təbiəti Ulu Tanrının xalqımıza böyük ərməğanıdır. Burada ilin hər fəsli insanda xoş ovqat yaradır. Yayın qaynarlığını, qışın qar-boranını, payızın həzinliyini, baharın təravətini daha yaxşı duyan daxili və xarici turistlər Qəbələyə dönə-dönə gəlmək istəyirlər. Ulu öndər Heydər Əliyevin vaxtilə “Qafqazın İçveçrəsi” adlandırdığı rayonda ilin bütün dövrlərində turist qələbəliyi hiss olunur. Qəbələnin turizm obyektləri hər il nüfuzlu beynəlxalq sərgilərdə iştirak edir. Bunun nəticəsidir ki, məzuniyyətini Qəbələdə keçirmək və rayonla daha yaxından tanış olmaq istəyən əcnəbi qonaqların sayı da sürətlə artır.

Bu gün “Azərbaycanın paytaxtı qlobal beynəlxalq tədbirlərin mərkəzinə çevrilib” fikri kimin üçünsə yenilik deyil, adi həyat gerçəkliyidir. İndi təkcə paytaxt Bakı şəhəri deyil, Azərbaycanın bölgələri - rayon və şəhərləri beynəlxalq tədbirlər üçün qapılarını açır. Bu xüsusda Qəbələ rayonunun adını xüsusi qeyd etmək olar. Deputatı olduğum rayonun son illər, sözün həqiqi mənasında, beynəlxalq tədbirlərin mərkəzinə çevrildiyini böyük fəxarətlə deyirəm! Xüsusən də yay aylarında Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən beynəlxalq musiqi festivalları rayonun şöhrətini bütün dünyaya yayıb. Bu ilin avqust ayında keçirilmiş növbəti festival da təkcə rayonun böyük potensialını deyil, ümumən Azərbaycan musiqisinin zənginliyini bütün dünyaya nümayiş etdirdi.

Dövlət başçılarının müxtəlif sammitlərinə, çoxsaylı beynəlxalq forumlara, konfranslara ev sahibliyi edən Qəbələnin artıq dünya miqyaslı bir şəhərə çevrilməsi əslində, Azərbaycanın dünyanın ən nüfuzlu ölkələrindən birinə çevrilməsinin əyani göstəricilərindəndir.

Bir məsələnin də üzərində xüsusi dayanmaq istərdim. Prezident İlham Əliyevin 13 illik fəaliyyəti yalnız yüksək quruculuq, abadlıq, inkişaf, tərəqqi kimi anlayışlarla səciyyələnmir. Dövlət başçısı az müddətdə insan hüquq və azadlıqlarının təmini, ölkədə demokratik proseslərin dərinləşdirilməsi istiqamətində də qətiyyətli addımlar atdı. Prezident nümayiş etdirdi ki, əsl demokratiya təkamül yolu ilə, tədricən bərqərar olunur. Azərbaycan iqtisadi cəhətdən inkişaf etdikcə, ölkədə demokratik proseslər də dərinləşir, qanunçuluq möhkəmlənir. Yaşayış səviyyəsi, maddi rifah halı yüksələn insanlar demokratiyanın həqiqi mahiyyətini dərk etməyə başlayırlar. Azərbaycan cəmiyyəti yüksək demokratik inkişafa hər hansı dağıdıcı inqilabla deyil, məhz təkamül yolu ilə nail olur. Azərbaycanın demokratik inkişafında yeni mərhələ uğurla davam edir. Xalq məhz bugünkü iqtidarın səmərəli fəaliyyətinin bəhrəsi olan iqtisadi, elmi, mədəni inqilabı dəstəkləyir. Son illərdə ölkədə baş verən möhtəşəm, inqilabi yeniliklər, modernləşmə prosesləri ölkəsini, xalqını sevən hər bir vətəndaş tərəfindən razılıqla qarşılanır. Azərbaycan iqtidarı iqtisadi, siyasi, hüquqi, demokratik islahatları bu gün də inamla davam etdirir.

Bəli, məhz cənab İlham Əliyevin fenomenal liderlik keyfiyyətləri sayəsində Azərbaycan xalqı XXI əsrin əvvəlində zamanla mübarizənin qalibi oldu. Daha böyük zəfərlərə doğru daim birgə addımlayacağıq.

MÜSTƏQİLLİYİMİZİN HEYDƏR ƏLİYEV YOLU SABİTLİK, QURUCULUQ VƏ TƏRƏQQİ YOLUDUR. BU YOL AZƏRBAYCANI DÜNYANIN İNKİŞAF EDƏN ÖLKƏLƏRİ SIRASINA ÇIXARMIŞ, RESPUBLİKAMIZI ÇİÇƏKLƏNƏN DİYARA ÇEVİRMİŞDİR.



# Xoşbəxt Yusifzadə: "Heydər Əliyevin şah əsəri olan "Əsrin müqaviləsi" Azərbaycana həm siyasi, həm də iqtisadi cəhətdən böyük uğurlar qazandırdı"

Hamıya məlumdur ki, tarixə artıq zəfər yolu kimi düşmüş bu yol ümumilli liderimiz Heydər Əliyevin yeni neft strategiyasının təməl daşı olan "Əsrin müqaviləsi"nin - Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın 8 ölkəsinin 11 neft şirkəti arasında "Azəri, Çıraq və Günəşli (suyun dərin hissəsi) yatağının birgə işlənməsi və hasilatın pay bölgüsü" haqqında sazişin imzalanması ilə başlanmışdır. 1994-cü il sentyabrın 20-də imzalanmış həmin saziş Azərbaycanda sosial-iqtisadi və ictimai-siyasi həyatın yeni eraya qədəm qoyduğunu xəbər verdi.

Ölkəmizin inkişafında "Əsrin müqaviləsi"nin çox böyük rolu oldu. Ən başlıcası bütün dövlətlər, bütün şirkətlər inandılar ki, Azərbaycan sabit ölkədir, burada işləmək olar və gəldilər, başladılar bizimlə bir yerdə işləməyə. Heç təsadüfi deyildir ki, bu müqavilədən sonra 27 müqaviləyə imza atıldı. Buna "Əsrin müqaviləsi" yol açdı.

Bir daha qeyd etmək istəyirəm ki, ümummilli liderimiz Heydər Əliyevin ümumiyyətlə respublikamızın, o cümlədən, neft sənayesinin inkişafı üçün gördüyü işlər, müəyyən etdiyi yeni neft strategiyası bundan sonra da Azərbaycanın möhkəm təməl üzərində inkişaf təmin edəcək və biz neftçilər bu vəzifənin həyata keçirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Ulu öndərimiz Heydər Əliyevin "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"- sözləri də cənab İlham Əliyevin inamlı qələbəsini təmin edən əsas faktorlardan idi.

Azərbaycan xalqı gündən-günə inkişaf edən Müasir Azərbaycanın qurucusu, dünya azərbaycanlılarının Ümummilli Lideri Heydər Əliyev dövlətçilik ənənəsinin davamçısı İlham Əliyevin siyasi kursunu, onun daxili və xarici siyasətini daim dəstəkləyir, Azərbaycanın dünya arenasında nüfüzunun daha da artmasına uğurlar arzulayır və onun taleyüklü məsələlərin həlli naminə məqsədyönlü fəaliyyətinə, Azərbaycanın işıqlı gələcəyinə inanır.

Ulu Öndər Heydər Əliyevin siyasi akademiyasının məzunu, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, Azərbaycan qadınlarına örnək olan, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın Azərbaycan elminin, mədəniyyətinin, təhsilinin və səhiyyəsinin inkişafında böyük xidmətləri olmuşdur. Mən bu uğurları alqışlayır və dəstəkləyirəm.

Mən indi İlham müəllim barəsində çox danışa bilərəm. Ancaq bizimlə bir yerdə işləməyindən, bizə, neft sənayesinə köməyindən iki misalı diqqətə çatdıracağam. Birinci dəfə Prezident seçiləndən sonra biz "Neft daşları"na getdik. "Neft daşları"nın 55 illiyini qeyd etdik. İkinci dəfə 60 illiyini qeyd etdik. 60 illikdə cənab İlham Əliyev bütün günü neftçilərin arasında oldu, elə bil, necə deyərlər, öz həmkarları arasında idi. Bu, hamımızı, bütün neftçiləri çox sevindirdi. Sonra "Əsrin müqaviləsi"nin 15 illiyi - o da çox təntənəli keçdi. Bunlar hamısı cənab İlham Əliyevin neftçilərə olan hörmətidir, neftçilərin əməyinə verdiyi yüksək qiymətdir.

İndi mən nə deyə bilərəm? Onu deyə bilərəm ki, nə qədər imkanım var, işləyəcəyəm, yaşayacağam. Amma bir şey var: 5 ili mən mütləq sağ qalmalıyam, işləməliyəm. Çünki bunu Prezident mənə "Neft daşları"nda tapşırıb. Mən nə karəyəm ki, Prezidentin tapşırığını yerinə yetirməyim. Ondan sonra baxaram, görüm nə olacaq? Hələlik, o tapşırığı gərək yerinə yetirim.

İndi burada hörmətli Mehriban xanım əyləşib. Mehriban xanım da respublikamız üçün çox işlər görür, hamınız bilirsiniz, indi mən onları təkrar etmək istəmirəm. Amma o da bizimlə Hyustonda külüng vuranlardan biri olub. Bir ay yarım bizimlə orada qalıb. Biz hamımız bir yerdə çörək yeyirdik, söhbət edirdik. Hətta çörək yeyəndə də işdən danışardıq. O, öz məsləhətləri ilə bizə kömək edirdi, öz sözlərini deyirdi. Ən vacibi o idi ki, bizi səhər bir bacı kimi yola salırdı. Sanki biz davaya gedirdik. Hər səhər bizi yola salır, bizə uğurlar arzu edirdi. Sizə də cansağlığı arzu edirəm. Uşaqlara, nəvələrə, hamınıza xoşbəxtlik arzu edirəm. Siz də bizim millətin fəxrisiniz. Biz hamımız Sizə baxıb fəxr edirik.



# Səttar Mehbalıyev: “Ulu öndər Heydər Əliyev AHİK-in cəmiyyətdə yeri və statusunu müəyyənləşdirdi”

Ümummilli lider Heydər Əliyevin Azərbaycan həmkarlar ittifaqlarına göstərdiyi diqqət və qayğı hamıya məlumdur. Ulu öndər həmkarlar ittifaqlarını müxtəlif siyasi qüvvələrin hücumlarından qorumaqla bu təşkilatın üzərinə düşən vəzifələri yerinə yetirməsinə hərtərəfli şərait yaratdı. Həmkarlar ittifaqlarının cəmiyyətdə yeri və statusunun müəyyənləşdirən «Həmkarlar ittifaqları haqqında» qanun ulu öndərin xeyir-duası ilə 1994-cü il fevral ayında qəbulu edildi. Qanunun qəbulu bizə imkan verdi ki, ölkənin sosial-iqtisadi məsələləri ilə bağlı qanun, qərar və Dövlət Proqramlarının hazırlanmasında müvafiq təkliflərlə iştirak edək. Heydər Əliyev AHİK-in I və II qurultaylarına göndərdiyi təbrik məktublarında qarşımızda çox mühüm vəzifələr qoymuşdur. Məktubların birində qeyd olunur: «...yeni mərhələdə həmkarlar ittifaqları əmək adamlarının kütləvi və müstəqil təşkilatına çevrilərək onların iş şəraitinin yaxşılaşdırılması, əməyin təşkili, iqtisadi hüquqlarının qorunması, sosial müdafiə problemlərinin həll edilməsi yolunda böyük əzmlə çalışmalıdır» çağırışına layiqincə cavab vermək üçün biz, həmkarlar ittifaqları olaraq, əlimizdən gələni əsirgəməmişik.

Bütün mənalı həyatını Azərbaycan xalqının firavanlığına, xoş gələcəyinə sərf edən ulu öndər Heydər Əliyevin diplomatiyası böyük bir siyasi məktəbdir və bu məktəbin ən kamil yetirməsi İlham Əliyevdir. Heydər Əliyev kimi siyasət və idarəçilik korifeyindən sonra ölkənin idarə edilməsi nə qədər çətin görünsə də, Prezident İlham Əliyev bu işin öhdəsindən layiqincə gəlir və öz fəaliyyəti ilə artıq sübut etmişdir ki, polad dayaqlar üzərində mövqe tutan və xalqını xoşbəxt gələcəyə aparan liderdir. Təkcə doğma Azərbaycana deyil, Qərbin, bütövlükdə dünyanın qlobal problemlərinə həssaslıqla yanaşan, baş verən hadisələri dərhal analiz etmək və nəticə çıxartmaq imkanları ilə fərqlənən Möhtərəm Prezidentimizin fəaliyyəti ilə yaxından tanış olarkən ondakı enerjiyə, xalqına olan sonsuz məhəbbət və sədaqətə heyran olmaya bilmirsən.

Bu gün biz qətiyyətlə və böyük bir fəxrlə deyirik ki, Ulu Öndərimizin qurub yaratdığı müstəqil Azərbaycan Respublikası bu gün etibarlı əllərdədir. Prezident kimi fəaliyyət göstərdiyi dövrdə cənab İlham Əliyev sübuta yetirdi ki, o, ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısıdır.

Dahi Heydər Əliyevin siyasi kursunu yaradıcılıqla, müasir tələblərə uyğun şəkildə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün Azərbaycan intibah dövrünü yaşayır. Ölkəmizdə mövcud olan daxili sabitlik, əmin-amanlıq sürətli iqtisadi təkamülün əsasında dayanan mühüm amillərdəndir. Bu tərəqqi ümummilli lider Heydər Əliyev ideyalarının təntənəsi, möhkəm bünövrə üzərində davamlı inkişaf edən müstəqil dövlətimizin real mənzərəsidir. Bu gün qürurla deyə bilərik ki, ötən illər ərzində, xüsusilə də son onillikdə, Azərbaycanın əldə etdiyi nailiyyətlər şəxsən cənab Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Prezident İlham Əliyevin iqtisadi siyasəti respublikanın inkişafı prosesində dinamizmi və məqsədyönlüyü təmin etmiş, qarşıda duran vəzifələrin həllinə real imkanlar açmış, cəmiyyətin ümumi potensialının milli məqsədlər naminə səfərbər olunmasına etibarlı zəmin formalaşdırmışdır. Azərbaycanın hərtərəfli müasirləşməsində mühüm rol oynayan bu iqtisadi siyasət həm də Milli İnkişaf Modelinin reallaşmasını təmin edən başlıca amilə çevrilmişdir.

Ölkəmizin müdrik rəhbəri, möhtərəm Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikanın hər yerində sürətlə aparılan genişmiqyaslı qurujuluq işləri bütün dünyaya nümayiş etdirir ki, inkişafın Azərbaycan modeli təsadüfi xarakter daşımır.

Ulu öndər Heydər Əliyevin siyasi akademiyasının məzunu, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, Azərbaycan qadınlarına örnək olan, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın Azərbaycan elminin, mədəniyyətinin, təhsilinin və səhiyyəsinin inkişafında böyük xidmətləri olmuşdur. Mən bu uğurları alqışlayır və dəstəkləyirəm.

Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi çoxşaxəli fəaliyyəti, bilavasitə rəhbərliyi və təşəbbüsü ilə həyata keçirilən layihələr, həmçinin fəal parlament fəaliyyəti istər ölkə daxilində, istərsə də xaricdə ona böyük rəğbət və nüfuz qazandırıb. Onun xeyriyyəçilik fəaliyyətində uşaqlara və yaşlı insanlara qayğı xüsusi yer tutur. Mehriban Əliyeva onların qarşılaşdıqları problemlərin aradan qaldırılması üçün mühüm işlər görür, Heydər Əliyev Fondu tərəfindən yeni məktəblər, xəstəxanalar tikilir. Birinci vitse-prezident vəzifəsinə təyin olunması Mehriban Əliyevanın fəaliyyət dairəsini daha da genişləndirəcək və əminik ki, o, Azərbaycanın inkişafına bundan sonra da dəyərli töhfələr verəcək.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu mədəniyyətlər arasında əməkdaşlıq və dialoq platformasının qurulmasında fəal iştirakı ilə dünya mədəniyyətində dərin və silinməz izlər qoyub, sivilizasiyaların yaxınlaşmasına mühüm töhfələr verib.

Azərbaycanda birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi məhz Mehriban Əliyevanın sədrlik etdiyi Təşkilat Komitəsinin adı ilə bağlıdır. Bu il ölkəmizdə keçirilməsi nəzərdə tutulan IV İslam Həmrəyliyi Oyunları üzrə Təşkilat Komitəsinin sədri missiyasının da Mehriban Əliyevaya həvalə edilməsi ona bəslənilən yüksək etimadın daha bir göstəricisidir.

**Bütün fəaliyyəti boyu ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutan Mehriban Əliyeva Birinci vitse-prezident vəzifəsində də Azərbaycana layiqincə xidmət edəcək.**

**Kollektivimiz adından bizim üçün doğma və əziz olan Azərbaycanın Birinci Vitse-Prezidenti Xanım Mehriban Əliyevanı təbrik edir, ona şəxsi həyatında və dövlətçiliyimizin möhkəmlənməsində uğurlar arzulayırıq.**

Müstəqil Azərbaycanın bugünkü inkişaf səviyyəsi, mükəmməl iqtisadi perspektivləri və parlaq gələcəyinin əsasında, heç şübhəsiz, dünya şöhrətli siyasi xadim, müasir tariximizin memarı Heydər Əliyevin ideyaları, işıqlı əməlləri, dövlət və xalq naminə fədakar fəaliyyəti dayanır.

İyirminci əsrin sonlarında xalqımızın yenidən qovuşduğu, lakin ilk illəri ekstremal şərait, vətəndaş qarşıdurması, xain erməni qonşularımız tərəfindən məruz qaldığımız mənfur etnik təmizləmə və təcavüz siyasəti, bir milyonu aşan qaçqın və məcburi köçkün ordusu, onilliklər ərzində təşəkkül tapmış iqtisadi münasibətlər sisteminin çökməsi, ağır sosial vəziyyət, ictimai həyatın bütün sferalarına sirayət edən dərin böhran, bütün bunlardan irəli gələn çoxsaylı taleyüklü vəzifələrin öz həllini tapa bilməməsi ilə səciyyələnən dövlət müstəqilliyi məhz ümummilli lider Heydər Əliyevin xilaskarlıq və quruculuq missiyası sayəsində qorunub saxlanmış və möhkəmləndirilmiş, bununla da müasir qüdrətli Azərbaycan dövlətinin əsası qoyulmuşdur.

Müstəqil dövlətimizin azərbaycançılığa söykənən əsas milli ideyasını formalaşdıran böyük düha sahibi Heydər Əliyev fenomenal şəxsiyyət və xarizmatik liderlik keyfiyyətləri sayəsində milyonlarla insanı ülvi amallar ətrafında səfərbər etmiş, milli tərəqqinin ana xətti kimi modernləşməni müəyyənləşdirərək, ölkəmizi yeni-yeni zirvələrə aparan total islahatlar və hərtərəfli inkişaf strategiyasına start vermişdir.

Dünya düzənini çalxalandıran mürəkkəb geosiyasi proseslər müstəvisində Azərbaycanın sabitlik adasına



**SƏLİM MÜSLÜMOV,**
**Azərbaycan Respublikasının Əmək vəƏhalinin Sosial Müdafiəsi Naziri**

# Vətəndaşın rifahını iqtisadi tərəqqinin əsas məqsədinə çevirən sosial inkişaf doktrinası

çevrilməsi, qlobal təlatümlər burulğanında meydana çıxan çoxşaxəli sosial-siyasi-iqtisadi risk amillərinin təsirlərindən effektiv qorunması ulu öndərin müəllifi olduğu müdrik inkişaf kursunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğunlaşdırılaraq məharətlə həyata keçirilməsi sayəsində mümkün olmuşdur.

Bu inkişaf kursunun təməl prinsiplərindən biri də odur ki, ötən əsrin 90-cı illərində ulu öndər mövcud şəraitdə hərtərəfli tərəqqi üçün sosial-iqtisadi sistemin bazar münasibətləri əsasında transformasiyasının tarixi zərurət olması konsepsiyasını irəli sürməklə yanaşı, bu keçid dövründə əhalinin sosial maraqlarının təminatını, iqtisadi potensialın ilk növbədə xalqın rifahına yönəldilməsini dövlətin strateji vəzifələri sırasına aid etdi.

Ağır tənəzzülün hökm sürdüyü həmin dövrdə ciddi çətinliklərə və məhdud imkanlara baxmayaraq, ulu öndər bazar iqtisadiyyatına yönəldilən kompleks islahat tədbirləri şəraitində əhalinin güzəranına mənfi təsirlərin azaldılmasını və etibarlı sosial müdafiə sisteminin qurulmasını vacib amil kimi ön plana çəkməklə əhalinin dövlət təminatı hesabına sosial risklərdən müdafiəsini milli prioritetə çevirmiş, bununla da ölkəmizdə müasir dövlət və vətəndaş cəmiyyəti quruculuğunda baza dəyər kimi sosial ədalətin əsas götürülməsini təmin etmişdir. Bu konseptual yanaşma həmçinin sosial inkişafın məqsədləri barədə dövlət və cəmiyyətin ideoloji baxışlarını, habelə həmin məqsədlərə nail olmaq üçün kompleks fəaliyyət istiqamətlərini özündə ehtiva edən sosial dövlət siyasətinin təməl prinsiplərini müəyyən etdi. Müstəqil Azərbaycanın milli tərəqqi prosesinin vacib komponenti kimi sosial sferanın, onun iqtisadi mexanizmlərinin təşəkkül tapması və inkişafı məhz bu təməl prinsiplərə əsaslanmış, əhalinin sosial müdafiəsinin inkişaf tarixinin bütün mərhələlərində vətəndaşın rifahının prioritet vəzifə olması ilə bərabər, hər bir mərhələdə həmin dövrə xas sosial-iqtisadi amillər də məqsədyönlü siyasətin tərkib hissəsi olaraq tam nəzərə alınmışdır.

Müstəqilliyin ilk illərində yeni iqtisadi münasibətlərə uyğun sosial müdafiə sisteminin mövcud olmaması və onun qurulmasına müəyyən zaman tələb olunması şəraitində ulu öndər sovet dönəmindən qalmış dövlət sosial təminat qaydalarının keçid dövründə də davam etdirilməsi ilə əhalinin maddi ehtiyaclarının aradan qaldırılmasına nail oldu və bu, aztəminatlı vətəndaşların bazar iqtisadiyyatına transformasiyanın doğurduğu çətinliklərdən qorunmasında vacib rol oynadı.

Bazar münasibətlərinin sürətlə formalaşdığı, yeni mülkiyyət formalarının yarandığı, sahibkarlığın sürətlə inkişaf etdirildiyi yeni iqtisadi şəraitdə sosial cəhətdən həssas əhali kateqoriyalarının mənafelərinin müdafiəsi təmin edildi, bazar iqtisadiyyatı prinsiplərinin diqtə etdiyi qiymətlərin sərbəstləşdirilməsi kimi tədbirlərin mənfi təsirlərinin adekvat neytrallaşdırılması yönündə mühüm sosial addımlar atıldı.

Ümummilli liderin təşəbbüsü əsasında 1990-cı ilin 20 Yanvar faciəsinə hüquqi qiymət verilməsi, "20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi, bu faciədə şəhid olanların ailə üzvlərinin dövlət qayğısı ilə əhatə olunması, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" xüsusi qanunların qəbulu, İkinci Dünya müharibəsində iştirak etmiş veteranların sosial müdafiəsinin gücləndirilməsi, 1994-cü ildə 9 May gününün Azərbaycanda yenidən Qələbə Günü kimi rəsmiləşdirilməsi təmin edildi. Ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinin maddi vəziyyətinin yaxşılaşdırılması, Azərbaycanın Milli qəhrəmanlarının və onlardan həlak olanların ailələrinə yardım edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin müxtəlif fərman və sərəncamları imzalandı.

1994-cü ildən əməyin ödənilməsinin minimum məbləğinin əhəmiyyətli şəkildə artırılması, habelə pensiya, təqaüd və müavinətlərin bu məbləğə uyğun müəyyənləşdirilməsi qaydasının tətbiqi davamlı sosial islahat tədbirlərininin vacib tərkib hissəsi idi. Həmin ilin 1 dekabrından sosial və işləməyən pensiyaçıların, dövlət ali və orta ixtisas təhsili müəssisələrinin gündüz şöbələrində oxuyan tələbələrin, texniki peşə məktəblərinin şagirdlərinin, adambaşına aylıq gəliri minimum əməkhaqqının 2 mislindən az olan ailələrdəki 16 yaşınadək uşaqların yeni məbləğlərlə pul kompensasiyası ilə təmin edilməsinə başlanıldı.

Artıq 1990-cı illərin ortalarına doğru ölkəmizdə ictimai-siyasi sabitlik Heydər Əliyevin müdrik siyasi kursu, zəngin dövlətçilik təcrübəsi və qətiyyətli fəaliyyəti sayəsində bərqərar oldu. 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması iqtisadi dirçəlişə təkan verərək, bütövlükdə respublikanın potensialının artmasına, bu əsasda vacib sosial hədəflərin uğurla reallaşmasına şərait yaratdı.

Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycanın ilk milli Konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi ölkə həyatının bütün sahələrdə yeni inkişaf mərhələsinə qədəm qoymasını şərtləndirdi. Dövlətin əsas qanunu ölkədə müasir və hüquqi dövlət quruculuğu proseslərini sürətləndirməklə bərabər, bazar prinsiplərinə söykənən milli sosialyönümlü iqtisadiyyatın qurulması üçün fundamental normativ bazanın formalaşmasına əsaslı zəmin yaratdı. Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olması, Azərbaycan dövlətinin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalmasına dair mühüm sosial normalar Konstitusiyada təsbit olunaraq ən yüksək səviyyədə bəyan edildi. Bu ali sənədin qəbul edildiyi 1995-ci ili, bütün sahələrdə olduğu kimi, sosial müdafiə sferasında da ciddi islahatlarla müşahidə edilən, sosial-iqtisadi tənəzzül proseslərinin tam cilovlanması və sabit inkişaf istiqamətində dönüşə nail olunduğu yeni mərhələnin başlanğıc nöqtəsi də adlandırmaq olar.

Bu mərhələdə etibarlı iqtisadi bazanın formalaşması şəraitində sosial müdafiə sisteminin yeni iqtisadi dövrün tələblərinə uyğun şəkildə müasirləşdirilməsinə, aztəminatlı vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə yönələn məqsədlərin uğurla həyata keçirilməsi, əhalinin sosial müdafiəsinə istiqamətlənən dövlət vəsaitlərinin ölkənin ümumi




inkişaf tempinə uyğun şəkildə mütəmadi artırılması üçün yeni və mühüm sosial proqramlara başlanıldı. Aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə imzalanan fərman və sərəncamlar, habelə müvafiq qərarlarla 1995-2003-cü illər ərzində pensiya və müavinətlərin orta aylıq məbləği ümumilikdə 8 dəfə artırıldı. Həmçinin bu dövrdə muzdla işləyənlərin orta aylıq nominal əmək haqqında 6 dəfədən çox artım baş verdi.

MDB məkanında ilk dəfə Azərbaycanda yeni sosial-iqtisadi şəraitə uyğun Əmək Məcəlləsi, məşğulluq və əmək miqrasiyası haqqında qanunlar, əlilliyin qarsısının alınması və reabilitasiyası üzrə ilk Dövlət Proqramı qəbul olundu, ölkənin Demoqrafik İnkişaf Konsepsiyası təsdiq edildi. Digər tərəfdən, ölkədə aqrar islahatların uğurla həyata keçirilməsi iqtisadi fəal əhalinin böyük hissəsini təşkil edən kənd əhalisinin səmərəli məşğulluğuna şərait yaratdı.

Heydər Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində müharibə əlillərinin, şəhid ailələrinin dövlət hesabına mənzillərlə, müharibə əlillərinin minik avtomobilləri ilə təminatına başlanıldı. Əlilliyi olan şəxslərin müxtəlif reabilitasiya vasitələri, bərpa-müalicə və protez xidməti ilə təminatı gücləndirildi. Bu istiqamətdə mühüm tədbir kimi Protez-Ortopedik Bərpa Mərkəzi fəaliyyətə başladı.

Sosial müdafiə sisteminin modernləşdirilməsinə yönəldilən köklü islahatlar çərçivəsində ulu öndərin təsdiq etdiyi Pensiya İslahatı Konsepsiyası ilə mütərəqqi dünya təcrübəsinə uyğun sığorta-pensiya sisteminin formalaşması prosesinin əsası qoyuldu. Bu islahatlar sistem xarakterli dəyişikliklər yolu ilə pensiya təminatının sosial və iqtisadi səmərəliliyin vəhdətinə əsaslanan yeni institusional formatda fəaliyyətini nəzərdə tuturdu.

Heydər Əliyevin 2003-cü il 20 fevral tarixli fərmanı ilə təsdiq olunmuş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" ölkədə yoxsulluqla mübarizədə əhəmiyyətli nəticələrin əldə edilməsinə imkan verdi.

Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişafı istiqamətində qurulmuş möhkəm zəmin 2003-cü ildən sonrakı dövrdə də ölkə həyatında mühüm rol oynamış, davamlı tərəqqinin əhalinin həyat səviyyəsinin gücləndirilməsinə yönəldilməsini dövlətin sosial-iqtisadi siyasətinin başlıca məqsədi səviyyəsinə qaldırmağa imkan vermişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin müstəqil milli iqtisadiyyatının formalaşdırılması, bazar prinsipləri əsasında gerçəkləşdirilən islahatlarla əhalinin sosial müdafiəsi tədbirlərinin əlaqələndirilməsi konsepsiyası uğurla reallaşdırılmışdır. Bu əsasda mövcud sosial müdafiə sisteminin bazar iqtisadiyyatı mühitinə uyğunlaşdırılaraq keyfiyyətcə yenidən qurulması sosial siyasətin strateji istiqamətlərindən biri kimi tam gerçəkləşdirilmişdir. Ölkənin artmaqda olan iqtisadi potensialı sosial sferada yüksək hədəflərin reallaşmasına, bu sahənin köklü islahatlar yolu ilə beynəlxalq standartlara uyğun yenidən qurulmasına əsaslı şərait yaratmışdır.

2003-2016-cı illər ərzində ölkədə ümumi daxili məhsul istehsalı 8,4 dəfə, minimum əmək haqqı 12,9 dəfə, bir nəfərə düşən orta aylıq əmək haqqı isə 6,4 dəfə artmışdır. Eyni dövrdə əhalinin gəlirlərində 7,9 dəfə, 2016-cı ildə isə əvvəlki ilə nisbətən nominal ifadədə 8,7 faiz artım qeydə alınmışdır.

Əhalinin həyat səviyyəsinin ildən-ilə yaxşılaşması yoxsulluğun kəskin şəkildə azalaraq 5 faizə enməsi ilə nəticələnib. Bu sahədə ölkəmizdə əldə olunan müsbət təcrübə Azərbaycanın BMT-nin Davamlı İnkişaf Məqsədlərinə dair milli məsləhətləşmələrin aparılması üçün seçilmiş ölkələr sırasına daxil edilməsini, bununla da ölkəmizin sosial inkişaf modelinin artıq beynəlxalq miqyasda bir nümunə kimi qəbul olunmasını şərtləndirib.

Ölkədəki demoqrafik vəziyyətdə davamlı xarakter alan müsbət meyllər də məhz dayanıqlı inkişaf mühitindən qaynaqlanır. Əhalinin illik artım səviyyəsinə görə Avropa məkanında ön cərgədə olan, doğulanların sayının ölənlərin sayını 3 dəfədən çox üstələdiyi Azərbaycanda əhalinin artımı davam edir və 2016-cı il ərzində ölkə əhalisinin sayı daha 104,4 min nəfər və ya 1,1 faiz artaraq 2017-ci il yanvar ayının 1-i vəziyyətinə 9810,0 min nəfərə çatıb. Respublikada müsbət demoqrafik proseslər iqtisadi fəal əhalinin sayının da artması ilə müşahidə edilir. 2010-cu ildən hazıradək ölkədə iqtisadi fəal əhalinin sayı 9,1 faiz artaraq 2016-cı il dekabrın 1-nə 5006,8 min nəfərə çatıb. Məşğulluq imkanlarının getdikcə yüksəlməsinin göstəricisi kimi, həmin müddətdə məşğul əhalinin say artımı iqtisadi fəal əhalinin say artımını üstələməklə 9,3 faiz təşkil edib, muzdla işləyənlərin sayı isə 9,5 faiz artıb.

İqtisadiyyatın sosialyönümlü inkişafında məşğulluq amilinin ön planda saxlanılması, aztəminatlı ailələr üçün passiv sosial təminat tədbirlərindən dayanıqlı aktiv məşğulluq proqramlarının tətbiqinə keçid, hər bir əmək qabiliyyətli ölkə vətəndaşının səmərəli məşğulluq imkanlarına malik olmasına şərait yaradılması Azərbaycan Prezidenti cənab İlham Əliyevin respublikanın sosial-iqtisadi inkişaf modelini formalaşdıran siyasətinin əsas prioritetlərindən biridir. Nəticədə, ölkənin əmək ehtiyatlarından dolğun istifadə, əhalinin məşğulluğu dövlətin sosial firavanlığın təminatına yönələn siyasət kursunun aparıcı bir sahəsi kimi formalaşaraq, ölkədəki iqtisadi inkişaf proseslərinin və islahatların səmərəlilik göstəricisi kimi çıxış edir. Bunun əməli təsdiqi kimi, iqtisadiyyatın sahəvi və coğrafi şaxələndirilməsi şəraitində əmək tutumlu sahələrin yaradılması, iri infrastruktur layihələrinin icrası, özəl sektorun, xüsusən kiçik və orta sahibkarlığın genişlənməsinə yönələn investisiya fəallığının, digər tərəfdən, regionların inkişafının hərtərəfli dəstəklənməsi ölkədə yeni iş yerlərinin açılmasını daimi prosesə çevirib. Ümumilikdə ötən dövrdə qeyri-neft iqtisadiyyatının genişləndirilməsi şəraitində 1,5 milyondan çox yeni iş yerinin yaradıldığı ölkəmizdə əmək bazarında sabitliyə və işsizliyin 5 faizədək azalmasına nail olunub. Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən layihəsi hazırlanan yeni Məşğulluq Strategiyasında əksini tapan fəaliyyət prioritetləri respublikada məşğulluq siyasətinin daha da güclənməsinə, əhalinin məşğulluq imkanlarının daha da artırılmasına istiqamətlənib.

Ölkədə müəyyən edilmiş prioritet sosial-iqtisadi inkişaf xəttinə uyğun olaraq 2016-cı ildə məşğulluq tədbirləri davam etdirilib. Ötən il ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq orqanları tərəfindən 56,6 min nəfər münasib işlə təmin edilmiş, 1,1 min nəfər haqqı ödənilən ictimai işlərə, 3,4 min nəfər peşə hazırlığı kurslarına cəlb olunmuş, 11 min nəfərə işsiz statusu verilmiş, 11,6 min nəfərə işsizlik müavinəti təyin edilmişdir. 2016-cı ildə işsizlik müavinətinin minimum məbləği 36,4 faiz, bu məqsədə ayrılan büdcə vəsaitinin məbləği isə 2,4 dəfə artırılmış, bu əlavə maliyyə imkanları işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə, eləcə də vətəndaşların işsiz qalma risklərinin qarşılanmasına yönəldilmişdir.

"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə əksini tapan prioritetlər sırasında insan kapitalının inkişafının stimullaşdırılması ölkədə əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün mühüm önəm kəsb edən məsələlərdəndir və bu baxımdan nazirliyin peşə hazırlığı sisteminin maddi-texniki bazasının gücləndirilməsi üçün son illərdə aparılan işlər xüsusi əhəmiyyət daşıyır. Hazırda Bakı, Naxçıvan, Göyçay şəhərlərində Regional Peşə Tədrisi Mərkəzləri fəaliyyət göstərir, Gəncə şəhərində daha modern belə bir mərkəz 2017-ci ildə istifadəyə veriləcəkdir. Bu sistemin gələcəkdə regional şəbəkəsinin daha da genişləndirilməsi diqqətdə saxlanacaqdır.

Dövlət məşğulluq siyasətinin bütün istiqamətlər üzrə gücləndirilməsi çərçivəsində əmək bazarı proqramlarının genişləndirilməsi, ölkədə ailə biznesinin inkişaf etdirilməsi baxımından dövlət başçısının 7 aprel 2016-cı il tarixli sərəncamına əsasən əhalinin özünüməşğulluğunun təmin olunması ilə bağlı ilk dəfə ölkəmizdə dövlət səviyyəsində icra edilən proqram mühüm əhəmiyyətə malikdir. İcrasına start verilmiş bu özünüməşğulluq proqramına ölkə üzrə təqribən 1500 ailə cəlb olunacaqdır ki, bu məqsədlə 6 milyon manat vəsait ayrılıb. Hazırda praktik icra mərhələsində olan bu proqram təkcə məşğulluğun təminatı məqsədinə deyil, həm də kiçik və orta sahibkarlığın dəstəklənməsinə yönəlib. Bu sahədə formalaşan uğurlu təcrübə gələcəkdə belə proqramların daha da genişlənməsini stimullaşdıracaq.

Ölkənin bütün rayon və şəhərləri üzrə bu proqramda iştirak etmək istəyən işsiz və işaxtaran vətəndaşlar iki aylıq biznesin təlimi kurslarına cəlb edilirlər. Təlim kurslarında Beynəlxalq Əmək Təşkilatının təlimçisinin iştirakı ilə hazırlanmış təlimçilər tərəfindən iştirakçılara biznes fəaliyyətinin təşkili ilə bağlı zəruri bilik və bacarıqlar öyrədilir. İndiyə qədər iştirakçılardan 1789 nəfəri kursları uğurla başa vurub. Onların hazırladıqları biznes-planların qiymətləndirilməsi biznes ideyasının reallaşdırılmasına hazırlıq, peşəkarlıq və təcrübə, motivasiya meyarları əsasında, obyektiv və tam şəffaf şəraitdə keçirilib. Qiymətləndirmədə kursları bitirənlərdən 80 faizinin biznes planları müsbət dəyərləndirilib. Uğurlu hesab edilən biznes-planların 83,6 faizi kənd təsərrüfatı, 9,4 faizi xidmət, 6,6 faizi istehsal, 0,4 faizi ticarət sahələrinə aiddir. Hazırda yaradılması nəzərdə tutulan müstəqil işsizlik sığortası sistemi aktiv məşğulluq tədbirlərinin genişləndirilməsinə imkan verməklə kiçik ailə biznesinin maliyyə təminatı kimi çıxış edəcəkdir.

2006-cı ildən fəaliyyət göstərən, sosial sığorta, fərdi uçot və pensiya təminatı sahəsində funksiyaların bir-birini tamamladığı müasir pensiya sistemivasitəsilə hazırda 1315,2 min nəfər pensiyaçıya yaşa, əlilliyə və ailə başçısını itirməyə görə əmək pensiyaları ödənilir. Ötən dövrdə ölkə rəhbəri tərəfindən əmək pensiyasının baza hissəsinin artırılması və sığorta hissəsinin indeksləşdirilməsi ilə bağlı çoxsaylı sərəncamlar imzalanmış, bununla yanaşı əvvəlki sistemlə əhatə olunmuş şəxslərin yeni şəraitə inteqrasiyasının tamamlanması üçün ardıcıl qərarlar qəbul edilmişdir. Bu mühüm sosial siyasət tədbirləri nəticəsində qeyd edilən dövr ərzində pensiya sisteminin büdcəsi 5,8 dəfə,əmək pensiyaları üzrə xərclər 5,9 dəfə,əmək pensiyasının baza hissəsi 4,4 dəfə, pensiyaların orta aylıq məbləği 6,4 dəfə artmış,yaşa görə pensiyanın ölkə

üzrə orta aylıq əmək haqqına nisbəti, yəni əvəzetmə əmsalı 28 faizdən 43 faizə yüksəlmişdir.

2016-cı ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirləri əvvəlki ilə nisbətən 261,1 milyon manat və ya 9 faiz artaraq 3175,7 milyon manat olub ki, bu da pensiya və müavinətləri hər ay vaxtında maliyyələşdirməyə imkan verib. 2016-cı ildə fondun xərclərinin 98,2 faizi və ya 3135,6 milyon manatı əmək pensiyaları və sosial sığorta müavinətləri şəklindəəhaliyə ödənişlərə yönəldilib. Prezident cənab İlham Əliyevin bu sahənin inkişafını daim xüsusi diqqət mərkəzində saxlaması əksər ölkələrin sosial sahədə ciddi ixtisarlar aparmaq zərurəti ilə qarşılaşdığı bir zamanda ölkə əhalisinin 13,4 faizini əhatə edən pensiya proqramlarının vaxtında və tam icra edilməsinin başlıca təminatçısıdır.

Əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatların mühüm elementlərindən biri də ölkədə dövlət büdcəsindən maliyyələşdirilən sosial təminat sisteminin yenidən qurulması olmuşdur. Bu sistem çərçivəsində ödənilən müxtəlif növ müavinət, təqaüd və digər sosial ödənişlərin davamlı artırılması əhalinin sosial müdafiəsinin gücləndirilməsinə əsaslı töhfə vermişdir. 2016-cı ildə 483,5 min nəfərə aylıq və birdəfəlik sosial müavinət təyin olunub ödənilmişdir. Bundan əlavə 57,8 min nəfərə Azərbaycan Respublikası Prezidentinin təqaüdləri təyin olunaraq ödənilmişdir. 2016-cı ildə bu məqsədlər üçün 339,1 milyon vəsait xərclənmişdir ki, bu da 2015-ci illə müqayisədə 35,2 milyon manat və ya 11,6 faiz çoxdur. Sosial müavinət və təqaüdlərin orta aylıq məbləği 2016-cı ilin əvvəlinə nisbətən 10 faiz artmışdır. 2016-cı ilin sonuna 165,4 min ailə (692,0 min nəfər ailə üzvü) ünvanlı dövlət sosial yardımı ilə təmin olunmuş və bu məqsədlərə 237 milyon manat xərclənmişdir.

Mühüm sosial proqramların, o cümlədən müharibə əlilləri və şəhid ailələrinin mənzillə, müharibə əliləri və onlara bərabər tutulanların minik avtomobili ilə təminatı davam etdirilmişdir. 2016-cı ildə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərdən və şəhid ailələrindən olan 288 nəfər, o cümlədən 118 nəfər mənzillə, 170 nəfər isə fərdi evlə təmin olunmuşlar. Həmçinin il ərzində 140 nəfər imtiyazlı şəxsə pulsuz avtomobil verilmişdir.

2016-cı il ərzində nazirliyin tabeliyində olan sosial xidmət müəssisələrində ümumilikdə 1085 nəfər tam dövlət təminatında olmuş, 1237 nəfər sosial işçi tərəfindən isə 11,6 min nəfər şəxsə evdə sosial məişət xidməti göstərilmişdir.

Respublikada əlilərin həyata inteqrasiyası, tibbi-sosial ekspertiza xidmətinin keyfiyyətinin yüksəldilməsi və əlillərin reabilitasiyası istiqamətində kompleks məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirilməkdədir. 2016-cı il ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bərpa-müalicə müəssisələrində 23,3 min nəfər əlilliyi olan şəxsə bərpa-müalicə və protez-ortopedik xidmətlər göstərilmiş, 32,8 min protez-ortopedik məmulat və reabilitasiya vasitəsi verilmişdir. Bərpa-müalicə infrastrukturunun təkmilləşdirilməsi istiqamətində də işlər aparılmışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə əsaslı yenidənqurmadan sonra 2015-ci ilin sentyabr ayında Respublika Əlillərin Bərpa Mərkəzi, 2016-cı ilin dekabr ayında Uşaq Bərpa Mərkəzi və Yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün bərpa mərkəzi istifadəyə verilib. Həmin mərkəzlərdə yüksək səviyyəli reabilitasiya şəraiti yaradılıb. Bu istiqamətdə işlər mərhələli şəkildə davam etdirilir.

Sosial sferanın qabaqcıl dünya təcrübəsinə uyğun modernləşdirilməsi istiqamətində reallaşdırılan kompleks islahatlar çərçivəsində müasir texnologiyalar və innovativ yeniliklərin geniş tətbiqi əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin əsaslı şəkildə yüksəldilməsiilə nəticələnmişdir.

Sığorta-pensiya sistemi hər bir vətəndaşın nazirliyin internet səhifəsində yaradılmış müştəri xidmətləri sisteminə daxil olaraq öz fərdi hesabı barədə məlumat almasına, pensiya kalkulyatoru vasitəsilə öz pensiyasını hesablaya bilməsinə imkan verir. Eləcə də pensiya yaşına çatmış şəxslər hər hansı sənəd toplamadan və vaxt itirmədən nazirliyin "Çağrı Mərkəzi"nə zəng vurmaqla real vaxt rejimində dərhal pensiya təyinatı hüququnu reallaşdıra bilirlər.



Əmək münasibətlərinin elektron qeydiyyat sistemi əmək bazarının, eləcə də işçi hüquqlarının təminatının dövlətin birbaşa nəzarətində saxlanılmasına, məşğulluğun dinamikasını, iş qüvvəsinin icarə şərtlərini, əməyin şərtlərini, işçi qüvvəsinin daha cox cəlb olunduğu fəaliyyət sahələrini və yerdəyişməsini və s. dəqiq şəkildə izləməyə, işəgötürənlərlə işçilər arasında əmək münasibətlərinin dəqiq və əhatəli uçotunu aparmağa imkan verir.

Hazırda ünvanlı sosial yardım üçün müraciətlərin edilməsi, onların qəbulu və müraciətlərə baxılaraq qərar verilməsi prosesi tam avtomatlaşdırılmışdır.Vətəndaşlar təmsil etdikləri ailələrin sosial yardım almaq hüquqlarına baxılması üçün internet əlaqəsi olan istənilən nöqtədən və istənilən vaxt kompüterlər, mobil telefonlar və s. vasitəsilə müraciət edə bilirlər. Ailələr barədə sistemə daxil edilən məlumatların yoxlanılması 20-dən çox qurumun elektron məlumat bazalarına inteqrasiya şəraitində həyata keçirilir və məlumatların təhlili, qərar qəbul etmə prosesi də avtomatik rejimdə yerinə yetirilir. Elektron informasiya sisteminin fəaliyyəti ünvanlı sosial yardım təyinatında vətəndaş-məmur təmaslarını aradan qaldırmış və təyinatda şəffaflıq tam təmin edilmişdir. Son nəticədə, bu, vətəndaşların sosial təminat hüquqlarından istifadədə məmnunluğa gətirib çıxarmışdır.

Həmçinin Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sistemi vasitəsilə əlilliyin ekspert-vətəndaş təmasları olmadan, tam şəffaf şəkildə qiymətləndirilməsinə başlanılmışdır. Bununla da əlilliyin təyini üçün tibbi-sosial ekspert komissiyaları tərəfindən vətəndaşların müayinəsi proseduru tamamilə aradan qaldırılmışdır. Belə ki, əlilliyin qiymətləndirilməsi üçün göndərişin rəsmiləşdirilməsi barədə Səhiyyə Nazirliyindən alınan məlumat real vaxt rejimində göndərişlərin reyestrinə daxil edilərək avtomatlaşdırılmış alt sistemə ötürülür. Sonrakı mərhələdə göndərişi verən səhiyyə müəssisəsinin, onu təsdiq edən şəxslərin, əlillik vəziyyəti qiymətləndirilməli olan şəxsin kimliyinə dair məlumatlar adsızlaşdırılır, şifrə verilir və bundan sonra əlillik vəziyyətinin qiymətləndirilməsi üçün həmin göndəriş elektron şəkildə hər hansı ekspert komissiyasına ötürülür. Göndərişin kimə aid olduğu, hansı səhiyyə müəssisəsi tərəfindən verildiyi bilinmədən, yalnız göndərişdə qeyd olunan xəstəlik vəziyyətinə uyğun olaraq, tam obyektiv şəkildə əlillik təyin olunub-olunmamasına dair qərar qəbul edilir. Eləcə də, sistem tərəfindən avtomatlaşdırılmış şəkildə əlillik müddəti başa çatmamış birinci dərəcə əlilliyin müddətsiz, ikinci və üçüncü dərəcə əlilliyin isə müddətinin 5 ilə qədər uzadılması nəticəsində, hər il təkrar müayinə edilməli olan 200 minə yaxın vətəndaşın bu prosedurdan keçməsinə ehtiyac qalmamışdır.

Azərbaycanın əmək və sosial müdafiə sahəsində aparılan islahatlar, tətbiq edilən avtomatlaşdırılmış sistemlər beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyərləndirilir, böyük maraqla müşahidə edilir. 2016-cı ilin aprel ayında Stokholm şəhərində keçirilən Avropa Regional Sosial Təminat Forumunda Azərbaycanın "Çağrı mərkəzi vasitəsilə avtomatlaşdırılmış pensiya təyinatı" adlı müsbət təcrübəsi müstəqil komissiya tərəfindən xüsusi sertifikata layiq görülüb və Beynəlxalq Sosial Təminat Assosiasiyasının Müsbət Təcrübələr məlumat bankına daxil edilib.

Bu yaxınlarda isə Dünya Bankının ekspert qrupunun müraciətinə əsasən, təşkilatın Vaşinqton şəhərindəki mərkəzi ofisi üçün ünvanlı sosial yardımla bağlı istifadə olunan avtomatlaşdırılmış sistemin geniş təqdimatı keçirilmişdir. BMT-nin "Ərəb ölkələri, Avropa və MDB regionlarında Cənub-Cənub Əməkdaşlığı çərçivəsində Əməkdaşlıq Mexanizmləri və Həllər" adlı portalında bu və digər avtomatlaşdırılmış sistemlərimiz təbliğ edilir. Həmin sistemlərlə bağlı bizim təcrübəmizi öyrənməyə maraq göstərən ölkələrin sayı da artır. Azərbaycanın əmək və sosial müdafiə sahəsində avtomatlaşdırılmış idarəetmə və xidmət sistemləri üzrə əldə olunmuş uğurlu təcrübəni bölüşmək məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində təkcə 2016-cı ilin sonu, 2017-ci ilin əvvəllərində Rusiya Federasiyasının, Ukraynanın, Moldova Respublikasının, Əfqanıstan İslam Respublikasının və Tacikistan Respublikasının nümayəndə heyətləri ilə görüşlər keçirilmişdir.

Müasir informasiya texnologiyalarının tətbiqi ilə əhaliyə göstərilən sosial xidmətlərin təkmilləşdirilməsi, vətəndaşların sosial təminat sahəsində sürətli, rahat və şəffaf xidmətlərə geniş çıxışının təmin edilməsi nəticəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müxtəlif fəaliyyət sahələri üzrə 30-dək elektron xidmətindən 2016-cı il ərzində əhali 6,5 milyon dəfə istifadə edib. Həmin il əzrində "Elektron hökumət" portalında elektron xidmətlərdən ən çox istifadə olunan dövlət qurumu da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi olub.

Növbəti mərhələ kimi, nazirliyin digər fəaliyyət sahəsinin - məşğulluq xidmətləri və işsizlik müavinəti sisteminin də avtomatlaşdırılması işləri aparılır. Artıq bu işlər yekunlaşmaqdadır. Yeni elektron sistem işsiz və işaxtaran vətəndaşların münasib iş yeri ilə təminatı və əmək bazarında işçi qüvvəsinə tələbin ödənilməsi işinin daha səmərəli və çevik təşkilinə imkan yaradacaq. Ümumilikdə, nazirliyin digər fəaliyyət sahələrində olduğu kimi, əhaliyə məşğulluq xidmətlərinin də müasir əsaslar üzərində və daha səmərəli təşkili yönündə 2017-ci il ərzində lazımi tədbirlərin görülməsi təmin ediləcək.

Ulu öndər Heydər Əliyevin müasir dövlət quruculuğu fəlsəfəsinin uğurla gerçəkliyə çevrilməsi ölkə həyatının bütün sahələrində mühüm nailiyyətlərə yol açdığı kimi, sosial sferada da çevik idarəçilik, əhatəlilik, səmərəlilik, şəffaflıq və ünvanlılıq prinsiplərinə söykənən müasir sosial müdafiə sisteminin qurulmasına şərait yaratmışdır. Dahi şəxsiyyət tərəfindən böyük uzaqgörənliklə müəyyənləşdirilən hərtərəfli tərəqqi siyasətinin çağdaş dövrün reallıqları nəzərə almaqla həyata keçirilməsinin bariz nümunəsi kimi bu sistem qlobal maliyyə-iqtisadi böhran şəraitində belə əhalinin etibarlı sosial müdafiəsini təmin etməkdədir.



# Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri ətraf mühitin mühafizəsinin təmin olunmasıdır

**Hüseyn BAĞIROV,**
**Azərbaycan Respublikasının Ekologiya və təbii sərvətlər naziri**

**-Hüseyn müəllim, Azərbaycanda həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biri də ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsidir. Bu istiqamətdə görülən işlər və əldə olunan nəticələri necə dəyərləndirirsiniz?**

-Müstəqil Azərbaycan dövlətinin, onun rəhbərliyinin, xüsusən dövlətimizin qurucusu, Ümummilli lider Heydər Əliyevin və onun davamçısı cənab İlham Əliyevin qətiyyətli, məqsədyönlü siyasəti nəticəsində bütün sahələrdə olduğu kimi ölkəmizdə ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi istiqamətində də əsaslı dönüş yaranmış, təbii ehtiyatların, o cümlədən su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində ardıcıl tədbirlər həyata keçirilmişdir.

İqtisadi inkişafla bərabər ətraf mühitin sağlamlaşdırılması, təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi bu gün də Azərbaycan dövlətinin və Ulu öndər Heydər Əliyevin siyasi- iqtisadi kursunu uğurla irəli aparan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir və ölkəmizdə reallaşdırılan milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri ətraf mühitin mühafizəsini, insanların sağlam təbii mühitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Buna uyğun olaraq Azərbaycan Respublikasının Prezidentinin imzaladığı fərmanlarda, təsdiq etdiyi Milli və Dövlət Proqramlarında ekoloji mühitin sağlamlaşdırılması məqsədi ilə nəzərdə tutulan hədəflərin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilmiş, müvafiq surətdə ətraf mühitin bütün sahələrində, o cümlədən aqromeşələrin salınmasında, yaşıllıqların artırılmasında, meşələrin inkişafında, biomüxtəlifliyin mühafizəsində, su ehtiyatlarının davamlı idarə olunmasında və digər sahələrdə nəzərəçarpacaq nailiyyətlər əldə olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2016-ci il 6 dekabr tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanında aqrar sahənin inkişafı əsas məqsədlərdən biri kimi qarşıya qoyulduğundan yaşıllıq ərazilərinin miqyasının genişləndirilməsi, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması, ixrac potensialının gücləndirilməsi, yeni iş yerlərinin yaradılması və idxaldan asılılığın azaldılması üçün meşə və qeyri-meşə fondu torpaqlarından daha səmərəli istifadə edilməsi istiqamətində aqromeşə massivlərinin salınması sahəsində işlərə başlanılmışdır. Meşə və qeyri-meşə fondu torpaqlarında meyvə bağlarından ibarət aqromeşə massivlərinin salınması istiqamətində qarşıdakı 5 ildə Nazirliyin daxili imkanları hesabına 23 çeşiddə 87,6 milyon ədəd müxtəlif meyvə tinglərinin alınması nəzərdə tutulmuşdur ki, artıq bunlardan 3290 mini yetişdirilmişdir. Eyni zamanda meşə fonduna aid nisbətən kiçik sahəli açıq talalardan ibarət 24678 hektar ərazilər müəyyən edilərək xəritələşdirilmişdir.

Meşələrin ətraf mühitin sağlamlığının tənzimləyicisi rolunun artırılması ilə yanaşı ETSN 2017-ci ilin əvvəlindən meşə fondunun meşə ilə örtülü olmayan ərazilərinin 2187 hektarında 1 milyondan çox aqrar əhəmiyyətli zeytun, fındıq, qoz, badam, nar, tut, innab, püstə, ərik və s. cinslərdən ibarət aqrobağlar salmışdır. Eyni zamanda, qeyri-meşə fondu ərazilərində son illərdə 2000 hektarda 1,3 milyon ədəddən artıq zeytun ağacı əkilmiş və bu bağlardan məhsuldarlığın ildən-ilə artaraq 2025-ci ildə 14000 tona çatması gözlənilir. Bundan başqa, meşə fondu ərazisində əvvəlki illərdə əkilmiş meşə cinsli ağaclardan başqa 3000 hektardan yuxarı ərazidə ayrı-ayrı meyvə cinsləri, o cümlədən qoz, şabalıd, fındıq, tut, nar cinslərindən ibarət meşə bağları salınmışdır ki, bu bağların da məhsuldarlığının artırılması üçün müvafiq tədbirlər görülməkdədir. Bütövlükdə Respublikamızın meşə və qeyri-meşə fondu ərazilərində 7000 hektardan artıq sahədə meyvə cinslərindən ibarət aqrobağlar salınmışdır ki, bunun da 5000 hektarı artıq bar verməkdədir.

Eyni zamanda, yerli cinslərlə yanaşı, ana bağların yaradılması üçün Nazirliyin daxili imkanları hesabına xaricdən 30 minə yaxın elit sortlu məhsuldar qoz, tut, innab, badam, püstə və digər meyvə tingləri alınaraq ölkəyə gətirilmişdir. Bu tinglər hesabına, Nazirliyin tinglik müəssisələrində artırılması təmin edilməklə digər ərazilərdə də həmin ağac cinslərindən ibarət aqromeşələr salınacaqdır.

**-Qeyri-meşə torpaqlarında yaşıllaşdırma işlərinin aparılması, aqromeşələrin salınması və yaşıllıqların artırılması istiqamətində hansı işlər görülüb?**

- Qeyri-meşə fondu torpaqlarında da yaşıllaşdırma işləri geniş vüsət almış, son illlər ərzində "Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu" ASC tərəfindən arid sahələrdə müasir metodlara əsaslanan iri yaşıllaşdırma layihələri həyata keçirilmiş, 4000 hektardan artıq ərazidə 5 milyon ağac əkilmiş, 11 min kilometr uzunluğunda damcılı suvarma sistemləri qurulmuşdur.

Əvvəlki illərdə salınmış zeytun bağlarının sahəsinin artırılması da Nazirliyin diqqətindən kənarda qalmamışdır. 2017-2021-ci illər ərzində aqromeşə massivlərinin yaradılması çərçivəsində artıq bar verən 2000 hektar zeytun bağlarına əlavə olaraq, respublikanın müxtəlif rayonlarında 5396 hektar sahədə yeni zeytun plantasiyalarının salınması nəzərdə tutulur ki, bu da gələcəkdə zeytun məhsullarına ölkənin bütün ehtiyaclarının ödənilməsini təmin etməklə bərabər ixrac potensialının yaradılmasına səbəb olacaq.

Qeyd edək ki, artıq ikinci ildir ki, Ümummilli lider Heydər Əliyevin ad günündə ağacəkmə aksiyalarının təşkil edilməsi və Prezidentin ailəsinin bu aksiyada iştirakı aqromeşələrin salınmasına və ümumiyyətlə yaşıllıqların artırılmasına verilən örnək və töhfə kimi qiymətləndirilməlidir. Təsadüfi deyil ki, dövlət başçısının təşəbbüsü ilə ölkədə milyonlarla ağac əkilib.

Ümumiyyətlə, son bir neçə ildə intensiv şəkildə meşəsalma və meşəbərpa tədbirlərinin aparılması, regionların qazlaşdırılması, meşələrin mühafizəsi tədbirlərinin gücləndirilməsi, o cümlədən qanunsuz ağac kəsmə hallarının ilbəil azalması hesabına meşə ilə örtülü ərazilərin sahəsinin artmasına nail olunmuşdur. Meşə ilə örtülü ərazilərin sahəsi 1 milyon hektarı keçmiş və ölkə ərazisinin 11,4 faizindən 11,8 faizinədək artmışdır. Son 15 ildə 144,5 min hektar sahədə 101,5 milyon ağac əkilmiş, 88,6 min hektar ərazidə meşə əkinləri meşə ilə örtülü ərazilərə keçirilmişdir. Təkcə 2016-cı ildə 10151 hektar sahədə meşəbərpa tədbirləri aparılmış, o cümlədən 2645 hektar yeni meşələr salınmış, 3 milyon 546 min ədəd ağac əkilmişdir. Tingliklərdə 35 milyon əkin materialı yetişdirilmiş, 158 ton toxum tədarük edilmişdir.

**- Hüseyn müəllim, rəhbərlik etdiyiniz qurum tərəfindən ekoloji problemlərin həllinə yönəldilmiş tədbirlərin səmərəliliyinin artırılması istiqamətində görülən işlər barədə nə deyə bilərsiniz?**

- Ümumilikdə ölkəmizdə ekoloji vəziyyət, təbii ehtiyatlar, onların mühafizəsi və bərpası davamlı inkişaf konsepsiyasının tərkib hissəsinə çevrilmişdir. Xüsusilə qeyd etmək yerinə düşər ki, ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən yararlanmaq və enerji effektivliyinə nail olmaq, qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi, həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətləridir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi də ekoloji problemlərin həllinə yönəldilmiş tədbirlərin səmərəliliyini artırmaq, operativ həll olunmasını təmin etmək, o cümlədən ətraf mühitin sağlamlaşdırılması məqsədilə ardıcıl işlər həyata keçirir.

Uzun illər ərzində yaranmış ekoloji problemlər təhlil edilərək, onların kompleks həllinə yönəldilən və davamlı inkişaf prinsiplərinə əsaslanan milli və dövlət proqramları təsdiq edilmiş və onların icrası istiqamətində tədbirlər görülmüşdür. Ölkədə mövcud qoruq və yasaqlıqların ərazisi genişləndirilmiş, milli parklar yaradılmış, ətraf mühitin qorunmasının gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir. Bu proqramların əsas məqsədi ətraf mühitin mühafizəsinə yönəldilmiş dövlət əhəmiyyətli investisiya layihələrinin sistemli və səmərəli şəkildə həyata keçirilməsini təmin etməkdən ibarət olmuşdur. Ətraf mühitlə bağlı qəbul olunmuş proqramların uğurla reallaşdırılması, ekoloji problemlərin daha səmərəli həlli məqsədilə müvafiq sərəncamların imzalanması bu sahənin ölkəmizdə prioritet məsələlər sırasına qaldırılmasına aydın misaldır.

Təbii ehtiyatların istismar intensivliyi nəzərə alınaraq Xəzər hövzəsinin Azərbaycan Respublikası üzrə ekoloji təhlükəsizliyinin təmin edilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi, aparılan işlərin tam ekoloji nəzarətdə saxlanılması, eyni zamanda ekoloji ekspertiza tələblərinin mövcud dünya standartlarına uyğun qurulması problemlərin azalmasına və bu sahədə əsaslı dönüşün yaranmasına gətirib çıxarmışdır.

Ölkənin iqtisadi inkişaf tempinə uyğun olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi çevik idarə olunan ekoloji siyasətin həyata keçirilməsi istiqamətində ətraf mühitin hər hansı komponentinin bərpa olunmayan dərəcədə pozulmasına səbəb ola biləcək fəaliyyətin qarşısının alınması, aztullantılı texnologiyaların tətbiq edilməsi, beynəlxalq təşkilatlar və inkişaf etmiş ölkələrlə ətraf mühitin mühafizəsi sahəsində əlaqələrin genişləndirilməsi, əhali arasında ekoloji təbliğatın və maarifləndirmənin gücləndirilməsi prinsiplərini tətbiq edir.

**- Hidrometeorologiya sahəsində yeni texnologiyaların tətbiqi, modernləşdirmə işləri barədə də fikirlərinizi bilmək istərdik...**

- Son dövrlərdə iqlim dəyişmələrinin təsirindən yaranan təhlükəli hidrometeoroloji hadisələrə nəzarətin gücləndirilməsi, proqnoz və erkən xəbərdarlıq sisteminin təkmilləşdirilməsi üçün hidrometeorologiya sahəsində yeni texnologiyaların



tətbiqi, modernləşdirmə işləri demək olar ki, başa çatdırılmışdır. Təkcə 2016-cı ildə 30 ədəd ən müasir avtomat meteoroloji stansiya quraşdırılmış və onların sayı 68-ə çatmışdır. Bundan başqa, iqlim məlumatlarının idarə olunması sistemi və müasir telekommunikasiya sistemi quraşdırılmış, bununla da hidrometeorologiyanın avtomatlaşdırma səviyyəsi 100 faizə çatdırılmışdır.

2017-ci ilin yanvarından hidrometeoroloji müşahidə məlumatlarının elektron qaydada toplanması təmin olunmuş, Ümumdünya Meteorologiya Təşkilatı ilə məlumat mübadiləsinin yeni sistem vasitəsi ilə həyata keçirilməsinə başlanılmışdır. Hidrometeoroloji stansiyalarda 6 ədəd birbaşa videogörüntü kameraları quraşdırılaraq onların sayı 29-a çatdırılmışdır.

Hidrometeorologiya sahəsində modernləşdirmə işlərinin nəticəsi olaraq meteoroloji proqnozların özünü doğrultması səviyyəsi 94-97 faizə çatdırılmışdır. Nəticədə Ümumdünya Meteorologiya Təşkilatından daha geniş çeşiddə məlumat almaq imkanı yaradılmışdır və bu da istənilən fövqəladə hadisə zamanı meteorologiya sisteminin fəaliyyətinin etibarlılığını qat-qat artırır.

Eyni zamanda milli monitorinq sistemi modernləşdirilmiş və ətraf mühitdə gedən proseslərin qiymətləndirilməsi və proqnozlaşdırılması, həmçinin ətraf mühitin vəziyyətinə dair məlumat bazasının yaradılması həyata keçirilmişdir ki, bu da operativ və rejim məlumatlarını əks etdirən gündəlik, üçgünlük, ongünlük və s. bülletenlərin hazırlanaraq aidiyyəti üzrə qərar qəbul edən dövlət orqanlarına çatdırılmasına və ictimaiyyətin məlumatlandırılmasına imkan verir.

Müxtəlif bölgələrdə, o cümlədən qonşu dövlətlərin ərazisində son dərəcə çirklənməyə məruz qalan transsərhəd çayların üzərində ən müasir cihaz və avadanlıqlarla təchiz olunmuş analitik tədqiqat labaratoriyaları istifadəyə verilmişdir. Xızıda quraşdırılmış atmosferin yüksək qatları ilə ölkəyə daxil olan transsərhəd çirkləndiriciləri təyin edən müasir atmosfer havasının fon monitorinqi stansiyası ilə yanaşı 2016-cı ildə Bakıda atmosfer havasının çirklənməsinin fasiləsiz monitorinqinin keçirilməsi məqsədilə üçüncü nəsil avtomatik stansiyalar kompleksi quraşdırılmış və radiasiya, səs-küy, vibrasiya, toz və qazların ölçülməsi məqsədi ilə çoxsaylı avtomatik qurğular alınaraq sözügedən şəbəkənin istifadəsinə verilmişdir.

Transsərhəd ərazilərdə radiasiya fonu üzrə tam avtomatlaşdırılmış erkən radioloji xəbərdarlıq monitorinq nəzarəti sistemi qurulmuş və monitorinq məlumatları hər yarım saatdan bir aidiyyəti dövlət qurumlarına ötürülür.

**- Hüseyn müəllim, bioloji müxtəlifliyin mühafizəsi sahəsində həyata keçirilən tədbirlərin nəticələri barədə nə demək olar?**

- Bioloji müxtəlifliyin mühafizəsi sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində xüsusi mühafizə olunan təbiət ərazilərinin ümumi sahəsi 2003-cü ildən etibarən təxminən 2 dəfə artırılaraq ölkə ərazisinin 10,3 faizinə çatdırılmışdır. Hazırda ölkədə ümumi sahəsi 893 min hektar olan xüsusi mühafizə olunan təbiət ərazisi, o cümlədən, 9 milli park, 11 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir.

Bu sahədə fəaliyyətin davamı olaraq Zaqatala-Balakən regionunda ölkə tarixində ilk biosfer qoruğun yaradılması istiqamətində iş aparılır. Eyni zamanda Qızılağac Dövlət Təbiət Qoruğunun ərazisinin genişləndirilərək Dənizkənarı Milli Parkın yaradılması məqsədilə zəruri tədbirlər görülür. Yeni qorunan ərazilərin yaradılması işi başa çatdıqdan sonra xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi ölkə ərazisinin təxminən 13 faizini təşkil edəcək.

Milli parklarda müasir xidmət infrastrukturunun yaradılması sayəsində ekoturistlərin sayı kəskin artmışdır. Göygöl Milli Parkında əhalinin müxtəlif təbəqələri üçün müasir tələblərə cavab verən ekoturizm infrastrukturu istifadəyə verilmiş, təkcə 2015-2016-cı illər ərzində buraya 265 min turist səyahət etmişdir. "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017–2020-ci illər üçün Milli Strategiya" təsdiq edilmişdir.

Vəhşi təbiətin mühafizəsi istiqamətində aparılan işlər davam etdirilir. Heydər Əliyev Fondunun dəstəyi və IDEA İctimai Birliyi ilə birgə həyata keçirilən layihə çərçivəsində 170 başdan artıq ceyran öz tarixi areallarına köçürülmüşdür.

**- Yeri gəlmişkən, bu kontekstdə hazırda daha iki məsələ aktuallıq kəsb edir: su hövzələrində bioloji resursların artırılması və əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması..**

- Su hövzələrində bioloji resursların artırılması istiqamətində son 15 ildə 6,5 milyard ədədə yaxın balıq, o cümlədən nərə cinsli və qızıl balıq körpələri yetişdirilərək su hövzələrinə buraxılmışdır. Xıllı Nərə Balıqartırma zavodunda süni yetişdirilmiş müxtəlif yaş qrupuna mənsub nərə cinsli balıqlardan ibarət təmir-törədici fond yaradılmışdır. Artıq burada süni yetişdirilmiş ana balığı öldürmədən cərrahi əməliyyat vasitəsilə alınmış kürüdən balıq körpələri yetişdirilir. Bununla da dənizdəki ana balıq qıtlığından asılılıq getdikcə azalır.

Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həyata keçirilən, qısa zamanda geniş əraziləri əhatə edən və effektiv nəticələr verən əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması tədbirləri üzrə 2007-ci ildə qurulmuş ilk modul tipli sutəmizləyici qurğular artıq 10 ildir ki, istismar olunur. Qeyd etmək lazımdır ki, qazanılmış təcrübə nəzərə alınaraq, yerli şəraitə tam uyğunlaşdırılmış texnoloji sxem əsasında sutəmizləyici qurğuların ölkədə istehsalı təşkil edilmişdir. Bu tədbirlər çərçivəsində 2007-2017-ci illərdə 24 rayonun 384 yaşayış məntəqəsində keyfiyyətli içməli su ilə təmin edilmiş əhalinin sayı 625 mini keçmişdir.

Azərbaycan Respublikası Prezidentinin 24 fevral 2017-ci il tarixli Sərəncamına əsasən 15 rayonun 100 kəndində (77 min nəfər əhali) icraçı şirkət tərəfindən Nazirliyin nəzarəti altında layihələndirmə işləri yekunlaşmış və artıq tikinti işlərinə başlanılmışdır. Bununla da ümumilikdə sözügedən fəaliyyət nəticəsində 484 yaşayış məntəqəsində 700 mindən artıq əhali keyfiyyətli içməli su ilə təmin ediləcəkdir.

Təcrübə göstərdi ki, yaşayış məntəqələrinin qısa müddətə təmiz su ilə təmin edilməsi kimi müasir yanaşma uğurlu olmuş və ictimaiyyətin rəğbətini qazanmışdır.

Gələcəkdə yarana biləcək su qıtlığı probleminin effektiv həlli üçün yeni yanaşma və texnologiyaların tətbiqi məqsədilə infrastruktur imkanları 20 min m3 olan, ilkin mərhələdə pilot olaraq sutkada 2000 m3 su duzsuzlaşdırmaq gücündə avadanlıq quraşdırılmış Dəniz suyunun duzsuzlaşdırılması zavodunda emal edilmiş sudan ətraf ərazilərdə salınmış yaşıllıqların suvarılmasında istifadə olunur. Eyni zamanda, Şirvan kollektorunun suyunun duzsuzlaşdırılaraq suvarılmaya yararlı vəziyyətə gətirilməsi üçün inşa edilmiş qurğuların istehsal gücü də 2 dəfə artırılaraq sutkada 5000 m3 çatdırılmışdır.

Son illər respublikada mərkəzləşmiş kanalizasiya sistemlərinin yenidən qurulması, mövcud çirkab sutəmizləyici qurğuların modernləşdirilməsi və yenilərinin inşası üzrə irimiqyaslı layihələr həyata keçirilir. Eyni zamanda Xəzər dənizinin kiçik lokal mənbələrdən çirklənməsinin qarşısının alınması məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Abşeron yarımadasının mərkəzləşdirilmiş kanalizasiya şəbəkəsi olmayan Mərdəkan, Buzovna, Bilgəh, Nardaran, Pirşağı, Novxanı və Sumqayıtın 90 kilometrə yaxın sahilboyu ərazilərində ümumilikdə gündə 7900 m3çirkab su təmizləmə gücünə malik modul tipli təmizləyici qurğulardan ibarət 17 stansiya istismara verilərək "Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi sistemi" yaradılmışdır.

**- Hüseyn müəllim, yer təkinin geoloji öyrənilməsi, həmçinin Geodeziya və kartoqrafiya sahəsində hansi işlər görülmüşdür?**

-Ölkə başçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində təmin edilmiş yüksək iqtisadi inkişafı xammal bazası ilə təmin etmək üçün yer təkinin geoloji öyrənilməsi işlərində ciddi nəticələr əldə olunmuş, dağqazma və buruq-qazma avadanlıqları bazasının yenilənməsi, yeni texnika və texnologiyaların tətbiqi sayəsində geoloji-kəşfiyyat işlərinin iqtisadi səmərəliliyinin artırılmasına nail olunmuşdur. 2001-2016-cı illər ərzində 297 yataq, o cümlədən 12 filiz, 64 qeyri-filiz, 214 inşaat materialları və 7 yeraltı şirin su yatağı Azərbaycanın Faydalı Qazıntı Ehtiyatlarının Dövlət və Sahə balansında qeydə alınmışdır. Hazırda yeni kəşf olunmuş yataqlar hesabına inşaat materiallarına və qeyri-filiz xammalına olan tələbat tam ödənilir.

Geodeziya və kartoqrafiya sahəsində topoqrafiya-geodeziya işləri üzrə beynəlxalq rəqəmsal xəritə standartlarında Azərbaycan Respublikasının Dövlət Yüksəklik Şəbəkəsi, Dövlət Geodeziya Şəbəkəsi işləri, Azərbaycan Respublikası ərazisini tam, həmsərhəd ölkələrin ərazilərini qismən əhatə edən 1:25000, 1:50000, 1:100000 miqyaslarda rəqəmsal topoqrafik xəritələrin hazırlanması, trianqulyasiya, poliqonometriya məntəqəsində nivelir nişanlarının müayinəsi və bərpası, müşahidə, həmçinin topoqrafik planalma, köhnə xəritələrin yenilənməsi, yeni xəritələrin tərtibatı və çapa hazırlanması işləri yerinə yetirilmişdir.

Kartoqrafiya işləri üzrə 908 adda 46740 nüsxə topoqrafik plan və xəritələr, 43 adda 2010 nüsxədə tematik xəritələr tərtib edilərək nəşr olunmuşdur. Belə ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhəddinin demarkasiyası məqsədilə çöl deşifrlənməsi işləri, Azərbaycan Respublikası ərazisinin 1:50000 miqyaslı topoqrafik rəqəmsal xəritələrinin yenilənməsi və nəşrə hazırlanması işləri, Dağlıq Qarabağ bölgəsi və ətraf rayonları əhatə edən rəqəmsal xəritələrin GİS proqramında tərtibi və PDF formatında çapa hazırlanması işləri başa çatdırılmışdır. Zaqatala, Masallı, Daşkəsən, İsmayıllı, Ağsu, Qusar rayonlarının 1:2000, 1:5000 miqyaslı planlarının yenilənməsi və tərtibatı işləri başa çatdırılaraq nəşr üçün təqdim olunmuşdur.

Bununla yanaşı, Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı ərazinin müfəssəl xəritəsi hazırlanmış, "Tikinti fəaliyyəti həyata keçirilərkən yaşıllıqların mühafizəsi və sürüşmə zonalarında təhlükəsizliyin təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 dekabr tarixli Fərmanının icrası məqsədilə bu ilin 3 ayı ərzində respublikanın 36 şəhər və rayon mərkəzində yaşıllıq ərazilərinin sərhədlərinin qrafik təsvirini əks etdirən xəritələr hazırlanmış və nazirliyin elektron saytında yerləşdirilmişdir.

Keçmişdən miras qalmış ekoloji problemlərin aradan qaldırılması və səmərəli idarəetmə sisteminin yaradılması Azərbaycan Respublikasının başqa sahələrdə olduğu kimi ətraf mühit sahəsində də beynəlxalq miqyasda nüfuzunun artmasına gətirib çıxarmışdır. Azərbaycanda ətraf mühitin mühafizəsi və ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmişdir. Nüfuzlu tədqiqat mərkəzləri olan ABŞ-ın Yel və Kolumbiya Universitetləri tərəfindən BMT-nin sifarişi ilə hazırlanmış və 2016-cı ildə açıqlanmış Ekoloji Fəaliyyətin Effektivliyi İndeksi (Environmental Performance İndex) sənədində ətraf mühitlə bağlı problemlərin həllində müsbət dəyişikliklərin tempinə və əldə olunmuş nailiyyətlərə görə Azərbaycan 180 ölkə arasında 31-ci sırada qərarlaşmış, Yaponiya, Belçika, Hollandiya, İsrail kimi dünyanın bir sıra qabaqcıl ölkələrindən daha yüksək mövqe tutmuşdur. Ölkəmiz Şərqi Avropa və Mərkəzi Asiya regionu üzrə 2-ci, MDB ölkələri arasında isə birinci olmuşdur. Azərbaycan ətraf mühitlə bağlı ayrı-ayrı sahələr üzrə, o cümlədən iqlim və enerji sahələri üzrə 2-ci, meşə örtüyündə dəyişiklik üzrə 5-ci, ətraf mühitin insan sağlamlığına təsiri üzrə isə 32-ci yerdə qərarlaşmışdır.





# İLHAMLA UĞURLU GƏLƏCƏYƏ DOĞRU

"Meliorasiya və Su Təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətlərdən səmərəli istifadə etməliyik"
Heydər ƏLİYEV, Ümummilli lider

Əhməd ƏHMƏDZADƏ,
Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri

Müstəqil Azərbaycan Respublikasının bu günkü dövlət quruluşu modelinin banisi, yaradıcısı, qurucusu və ona əbədi həyat bəxş edən yeganə şəxs Ümummilli Liderimiz Heydər Əliyevdir.Ulu Öndərimizin həyat salnaməsini diqqətlə araşdırdıqda əmin olursan ki, o, bütün ömrü boyu doğma xalqı barəsində düşünüb, bütün şüurlu həyatını canı ilə, qanı ilə sevdiyi Azərbaycanın tərəqqisinə həsr edib. Gənclik illərində də, sonra da müxtəlif məsul vəzifələrdə çalışdığı vəzifə pillələri ilə addım-addım irəlilədiyi vaxtlarda da Azərbaycan xalqının taleyi onu həmişə düşündürmüşdür.

"Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir".

Bu sözlər "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamından götürülmüş və burada dahi Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki müstəsna yeri və xidmətləri dəqiq müəyyən edilmişdir.

Бу эцн биз гятиййятля вя бюйцк бир фяхрля дейирик ki, Ulu Öndərimizin qurub yaratdığı müstəqil Azərbaycan Respublikası bu gün etibarlı əllərdədir. Prezident kimi fəaliyyət göstərdiyi dövrdə cənab İlham Əliyev sübuta yetirdi ki, o, ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə ölkəmizi yeni epoxanın işığında hərtərəfli şəkildə irəliyə doğru inkişaf etdirməyin nümunəsini göstərmişdir. Artıq hər kəsə yaxşı bəllidir ki, Azərbaycan Respublikasının Prezиdenti İlham Əliyev dünyada XXI əsrin meydana çıxardığı yeni siyasi liderlərin və dövlət başçılarının ən görkəmlisidir.

Prezident İlham Əliyev sözün həqiqi mənasında, görkəmli dövlət xadimi kimi, dövlətə rəhbərlik etməyin şərəf və məsulliyyətini uğurla birləşdirir. O, müstəqil Azərbaycan dövlətini həm mükəmməl şəkildə idarə edir, həm də istənilən mötəbər məqamda böyük ləyaqətlə təmsil etmək vəzifəsini yüksək şəkildə gerçəkləşdirir. Azərbaycan Respublikasında köklü, davamlı dövlətçilik ənənələrinin qorunub saxlanılması şərtilə dövlət strukturu böyük sürətlə inkişaf etdirilərək Avropa stsndartlarına uyğunlaşdırılır, dövlətin idarə olunmasının ən müasir forma və metodları uğurla tətbiq olunur. Ölkəmizdə demokratik cəmiyyətin, bazar münasibətlərinə əsaslanan iqtisadi siyasətin bərqərar olması proseslərinə ciddi fikir verilir. İqtisadiyyatda özəl sektorun üstünlük qazanması, neft gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirməsi də Prezident İlham Əliyev siyasətinin əsasıdır.

Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial- iqtisadi inkişaf strategiyasının inamla həyata keçirilməsi və yeni çalarlarla zənginləşdirilməsi respublikamızın müasir inkişaf səviyyəsini müəyyən etmişdir. Ötən illər ərzində iqtisadiyyatın şaxələndirilməsi, makroiqtisadi və maliyyə sabitliyinin qorunmasının təmin edilməsi, dayanıqlı iqtisadi artımın və iqtisadiyyatın modernləşdirilməsinə dəstək verən siyasətin dərinləşməsi qeyri-neft sektorunun inkişafı ilə yadda qalmışdır. Azərbaycan davamlı inkişafa nail olan islahatçı dövlət kimi öz reytinqini bir qədər də möhkəmləndirdi və bütün bunlar tanınmış beynəlxalq qurumların hesabatlarında öz dolğun ifadəsini tapmışdır. Belə ki, aparılan islahatlar beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilmişdir.

Ötən 14 il ölkə həyatı üçün strateji əhəmiyyət daşıyan inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah prosesinin geniş vüsət alması ilə səciyyəvidir. Respublikanın investisiya və sosialyönümlü mahiyyət daşıyan milli inkişaf modeli tərəqqi prosesində yeni keyfiyyət göstəricilərinin əldə olunması, qeyri- neft sektorunun inkişafı yolu ilə regionların balanslı və davamlı inkişafının sürətləndirilməsi, əhalinin sosial- rifah halının daha da yaxşılaşdırılması, faydalı məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması üçün milli sahbkarlığın hərtərəfli dəstəklənməsi kimi vacib məsələləri özündə ehtiva etmişdir. Yeni neft strategiyasının uğurla davam etdirilməsi, Azərbaycanın xarici sərmayələr üçün cəlbediciliyinin qorunması, milli iqtisadiyyaın müxtəlif sferalarına yönələn sərmayələrin qeyri- neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, respublikada güclü insan kapitalının formalaşdırılması məqsədinə yönəldilməsi iqtisadi siyasətin əsas prioritetləri kimi diqqət çəkmişdir. Bunun nəticəsidir ki, ötən 14 il ərzində müstəqil Azərbaycan iqtisadi cəhətdən möhkəmlənmiş, qüdrətlənmiş, sosial- iqtisadi yüksəliş ilk növbədə insanların gündəlik həyatında özünü daha qabarıq büruzə vermişdir. Regionların sosial- iqtisadi inkişafına xidmət edən dövlət proqramları bölgələrə sərmayə qoyuluşlarının həcmini əhəmiyyətli dərəcədə artırmışdır.

Azərbaycanda ölkə iqtisadiyyatının digər sahələrinə olduğu kimi, meliorasiya və su təsərrüfatının inkişafına да Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş diqqət və qayğı onun layiqli davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Onun sahəyə diqqəti və yaxından köməkliyi sayəsində bir çox layihələr başa çatdırılmış,



bəzi layihələr uğurla davam etdirilir, bir çoxlarının isə həyata keçirilməsinə başlanılmışdır. Möhtərəm Prezidentimiz meliorasiya və su təsərrüfatının respublikamızın iqtisadiyyatındakı, regionların sosial-iqtisadi inkişafındakı və ölkənin ərzaq problemlərinin həllindəki rolunu nəzərə alaraq, sahənin inkişafını daim diqqət mərkəzində saxlayır, meliorasiya və su təsərrüfatı obyektlərində tikinti işləri ilə şəxsən tanış olur, obyektlərin təməlqoyma və istifadəyə verilməsi mərasimlərində iştirak edir.

Həyata keçirilmiş ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində mövcud meliorasiya və irriqasiya obyektlərinin istismarı, suvarılan torpaqların su təminatı və meliorativ vəziyyəti xeyli yaxşılaşdırılmış, sahənin maddi-texniki bazası gücləndirilmiş, yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş və bunun hesabına son illər respublikada kənd təsərrüfatı məhsullarının istehsalı mütəmadi şəkildə artmaqdadır.

Qarşıya qoyulmuş vəzifələrin icrası məqsədi ilə Cəmiyyət tərəfindən meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə sahəsində 2017-ci ildə konkret tədbirlər həyata keçirilmişdir. Magistral kanallar üzrə su bölgüsü limitləri, respublikanın çayları üzrə suvarma dövründə rayonlararası su bölgüsü cədvəlləri hazırlanaraq təsdiq edilmiş, bütün istismar təşkilatlarında gecə-cündüz növbətçilik yaradılmış, vegetasiya suvarmasının mütəşəkkil həyata keçirilməsi, sudan səmərəli və qənaətlə istifadənin təmin edilməsi və su limitlərinə nəzarətin gücləndirilməsi məqsədi ilə Cəmiyyətin mütəxəssisləri ayrı-ayrı obyektlərə təhkim edilmiş, çayların gursululuq dövründə su anbarlarının doldurulması və yarana biləcək sel və daşqın sularının maneəsiz axıdılması üçün bütün təxirəsalınmaz tədbirlər görülmüşdür. Aparılan təmir və bərpa işləri kənd təsərrüfatı bitkilərinin vegetasiya suvarmasının mütəşəkkil aparılmasını təmin etmişdir.

Nazirlər Kabinetinin 2017-ci ilin altı ayının sosial- iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda ölkə başçısı tərəfindən kənd təsərrüfatının inkişafının, ərzaq təhlükəsizliyinin təmin edilməsinin, meliorasiya və suvarma işlərinə daha böyük diqqət göstərilməsinin vacib olduğu bildirilmiş, yeni əkin sahələrinin dövriyyəyə verilməsi ilə suvarılan torpaqların daha böyük dərəcədə artırılması, xüsusi ilə pambıqçılığın, tütünçülüyün, üzümçülüyün, baramaçılığın inkişaf etdirilməsi sahəsində bizim qarşımızda mühüm vəzifələr qoyulmuşdur.

Səhmdar Cəmiyyəti ölkə rəhbərliyinin sahəyə göstərdiyi böyük diqqət sayəsində meliorasiya və irriqasiya sistemlərinin istismarının lazımi səviyyədə təşkili, suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması, inkişafı, sel və daşqın sularının zərərli təsirinə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi sahəsində fəaliyyətini uqurla davam etdirir.

Bütün xalqımız kimi, biz melioratorlar da möhtərəm Prezidentimiz cənab İlham Əliyevi böyük siyasətçi, yenilikçi, islahatçı bir şəxsiyyət kimi tanıyır, ölkəmizin inkişafı istiqamətindəki siyasətini yekdilliklə müdafiə edir və bu məqsədlə onun verdiyi bütün tövsiyələri və tapşırıqları gələjək fəaliyyətimizdə proqram sənədi kimi qəbul edirik.

Möhtərəm Prezidentimizi əmin edirik ki, onun meliorasiya və su təsərrüfatı sahəsinə olan diqqət və qayğısına cavab olaraq kollektivimiz bütün imkanlarını səfərbər edərək bundan sonra da daha məsuliyyətlə çalışacaq, mövcud meliorasiya və irriqasiya sistemlərinin qorunub saxlanılmasını, onların istismarının yüksək səviyyədə həyata keçirilməsini, sahənin durmadan inkişaf etdirilməsini təmin edəcək, ölkəmizin ərzaq məhsulları ilə etibarlı təminatına öz layiqli töhfəsini verəcəkdir.

**Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dövlət quruculuğu sahəsində qadınlar da önə çəkilmiş və bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu Öndər Heydər Əliyev siyasi akademiyasının məzunu, UNESCO-nun və İSESCO-nun Xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, Azərbaycan qadınlarına örnək olan, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Azərbaycan elminin, mədəniyyətinin, təhsilinin və səhiyyəsinin inkişafında böyük xidmətləri olmuşdur. Mən də hər bir azərbaycanlı kimi bu uğurları alqışlayır və dəstəkləyirəm.**

Ümummilli liderin siyasi zəmanəti və yüksək xalq etimadı ilə 2003-cü ildə prezidentlik missiyasına başlayan İlham Əliyev qısa zamanda misilsiz uğur-lara imza atdı və xalqın sonsuz hörmət və rəğbətini qazandı. Bu gün bütün dünyada müasir dövrün lideri obrazının bütün keyfiy-yətlərini beynəlxalq aləmə öz siyasi fəaliyyəti ilə nümayiş etdirən Prezidentimiz cənab İlham Əliyev müstəqil Azərbaycanın milli maraqlarını, mənafeyini lə-yaqətlə və qətiyyətlə qorumaq-dadır. Biz də cənab prezidentimizə uzun ömür, cansağlığı arzulayırıq.

**Kollektivimiz adından bizim üçün doğma və əziz ola n Azərbaycanın Birinci Vitse-Prezidenti Xanım Mehriban Əliyevanı təbrik edir, ona şəxsi həyatında və dövlətçiliyimizin möhkəmlənməsində uğurlar arzulayırıq.**



**Cavid QURBANOV,**
**“Azərbaycan Dəmir Yolları” QSC-nin Sədri, Milli Məclisin deputatı**

